**PAŞA YAQUB**

# CƏLİL BƏY

Bakı - 2015

**Redaktorlar:** **Nazim Tapdıqoğlu (*Vəlişov*) -** *tədqiqatçı-tarixçi, Bakı Dövlət Universitetinin müəllimi, "Qızıl Qələm" mükafatı laureatı*

***Zahidə Vulkan (Şəkinski)-*** *"Qanunsuzluqla Mübarizə" ÜAİB-nin həmsədri, hüquqşünas, ekspert.*

Paşa Yaqub, "**Cəlil bəy**".
Bakı, "Zərdabi LTD" MMC, 2015, 120 səh.

*Tədqiqatçı-yazıçı Paşa Yaqubun arxiv materiallarından istifadə etməklə yazdığı bu kitabda Qaraməryam rayonunun (ərazisinin böyük bir hissəsi İsmayıllıya verilib) Qubadlı Şıxlı kəndinin (hazırda bu kənd Göyçay rayonunun tabeliyindədir) vətənpərvər oğlu, tanınmış xeyriyyəçi, Cəlil bəy Cahangir oğlunun (1880-1930) keçdiyi şərəfli həyat yolundan, fəaliyyətindən, 1930-cu ildə haqsız həbs olunmasından bəhs edilir. Eyni zamanda müəllif bu kitabında Göyçay rayonunun tarixinə də qısa səyahət etmişdir. Axtarışlar, tapıntılar kitabın gərgin iş, ağır zəhmət bahasına başa gəldiyindən xəbər verir.*

*Kitab geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.*

$Y \frac{4705120994-18}{0103-2015}$ Qrifli nəşr

© Paşa Yaqub, 2015
© "Zərdabi LTD" MMC, 2015

## ÜRƏK AĞRISI İLƏ OXUDUĞUM KİTAB

Kitabı oxuyub rəy yazmağımı müəllif məndən xaş edəndə belə bir kitab olduğunu ağlımdan keçirmədim.

Çoxsaylı kitab müəllifi olan Paşa Yaqubun sıradan bir kitabı olacağını düşündüm. Müəllifin kitablarının dəsti-xəttindən tamam uzaq və həm də onun ürəyinə yaxın olan bu kitab mən deyərdim ki, Paşa Yaqubun ŞAH əsəridir.

Kitabı ürək ağrısı ilə oxudum.

Birinci halda, Cəlil bəyin ailəsinin faciəsi ürək ağrıdandır.

İkinci halda, kitabı oxuduqca elə bilirdim ki, XX əsrin 30-cu illərində olan hadisələri yox, bu gün baş verən hadisələri oxuyuram.

Həmişə eşitmişdim ki, klassiklərimizin əsərləri bu günümüzü əks etdirir. Bu kitabı oxuduqda bir daha əmin oldum ki, xalqımızın faciəsi XX əsrin əvvəllərindən başlamış və bu günə kimi də davam edir.





Bəyləri gəda, gədaları bəy etmək siyasəti artıq bir əsrə yaxındır ki, xalqımızın tarixində indi də qara səhifə olaraq qalmaqdadır.

Qəhrəmanlarımızın "xalq düşməni", xalq düşmənlərinin isə "qəhrəman" adlandırılması bu kitabda yazılanlarla bir daha öz təsdiqini tapır. Bu heç də xalqımızın genefondundan gələn hal deyil. Bu, xalqımızın düşmənlərinin sapı bizdən olan baltalardan istifadə etməsindən irəli gələn haldır. Satqınlar, qorxaqlar, paxıllar, riyakarlar və s. bütün xalqlarda olduğu kimi, nə yazıq ki, bizim də aramızda olub, indi də var və təəssüf ki, həmişə də olacaqdır.

Belə ki, camaatın (xalqın) suyunu kəsdiyinə görə Mahmud Nuh oğlu ilə dalaşan Cəlil bəyin oğlu Cahangir bəydən sonradan əlinə fürsət düşən kimi qisas alan Mahmud Nuh oğlu əslində xalqa qənim kəsilən, xalqı susuz qoyan birisi olmuşdur. Bolşeviklər ondan məharətlə xalqımızın say-seçmə bəylərindən olan Cəlil bəy və onun hələ çox gənc olan 24 yaşlı oğlunun məhvində istifadə etdilər. Ona verilən fürsətdən yararlanan Mahmud Nuh oğlu xalqa qarşı nakişilik etdiyinə görə, Cahangir bəydən layiqli cavab aldığının qisasını alır.

Ulaşlı Şıxlı Kommunasının sədri olan Mahmud Nuh oğlu əslində bu əməlilə təkcə Cəlil bəydən yox, elə camaatdan qisas almış olur.

Kitabda yer alan Cəlil bəyin ittihamına və məhkəmə hökmünə diqqət edildikdə aydın olur ki, onun çörəyilə ailəsini dolandıran nankorlar və onunla ədavəti

olanlardan başqa Cəlil bəyin özü və ailəsinə qarşı nakişilik edən olmamışdır. Bu hal bir daha Cəlil bəyin xalq arasında hörmətli birisi olmasını təkzibedilməz sübut kimi əks etdirir.

Cəlil bəyin savadsız olsa da haqqını tələb etməyi bacarması, hüquqlarını çox gözəl bilməsi və cəsarətli olması iş materialları ilə kitabda geniş yer alır. Belə ki, məhkəmə şousundan aydın olur ki, Cəlil bəy sınıq dəyirman daşına görə yüksək məbləğdə vergi verməkdən imtina edir. Həmin daşı maliyyə şidarəsinin qabağına gətirərək, çox çətinliklə də olsa, onlara daşın sınıq olmasını sübut edir. Eyni zamanda ona yazılan artıq verginin silinməsinə nail olur.

Cəlil bəy və oğlunun ittihamının əsasına diqqət edildikdə görünür ki, saxta ittihamlarda onlardan hələ sosializm qurulmamışdan əvvəlki illərin hesabı sorulur.

Bütün bu saxta ittihamların Cəlil bəy kimi nüfuzlu bir bəyin Göyçay mahalından uzaqlaşdırılmasına və eyni zamanda bu iyrənc ittihamlardan sonra digər mahallarda da yaşayan digər nüfuz sahiblərinin sındırılmasına hesablanması gözlə görünəndir.

Cəlil bəy və oğluna verilən cəzanın çox ədalətsiz olması da göstərdiklərimin sübutudur.

Eyni zamanda kitabda xalqımızın dost üçün ölümə belə getməyə hazır olan bir ənənəsi olması da yer almışdır. Bu, Cəlil bəyin yaxın dostu Mirzəli bəyin oğlu Niftalı bəyin simasında əksini tapır.





O, həmin dövr üçün özünə təhlükə yarana biləcəyini bildiyi halda, Cəlil bəyin güllələnmə hökmünün 10 il həbslə əvəzlənməsinə çalışır və buna nail olur. Niftalı bəy həbsdə dünyasını dəyişən Cəlil bəyin nəşinin kəndə gətirilməsində də çox böyük rol oynayır.

Vətənpərvərlik, xalqını sevmək Cəlil bəyin və onun övladlarının genindən gəldiyindən bu ədalətsizliklərdən sonra da onun oğlanları Vətən uğrunda döyüşlərə atılırlar. Vətən onları köməyə çağıran anda onlar hazır olurlar. Böyük Vətən müharibəsində itkin düşürlər.

Kim bilir, bəlkə də Cəlil bəyin və onun oğlunun ölümünə bais olanlar Vətən çağıranda müxtəlif bəhanələrlə müharibəyə getməyiblər.

Cəlil bəyin xanimanının qarət edilməsi halı isə, bolşeviklərin əməllərilə dediklərinin tamamilə ziddiyyətli olmasını təsdiq edir.

Cəlil bəyin ailəsinin vətənpərvərliyi onların sürgün edilməsi ilə təsdiqini tapır. Belə ki, onlar yaşadıqları kənddən sürgün edilmələrinə baxmayaraq, fürsət düşən kimi həmin kəndə qayıdır və bu kənddə yaşamağa qərar verirlər. Halbu ki, həmin kənddə onların bütün həyatlarını alt-üst edən xalq düşmənləri vəzifə başında idilər.

Cəlil bəyin oğlu Cahangir bəyin altı il müddətinə həbs olunmasına baxmayaraq, ailəsinin ondan səs-soraq ala bilməməsi, onun müəmmalı yoxa çıxması, Cəlil bəyin həbsxanada dünyasını dəyişməsi və

kitabda əks olunan digər hallar rejimin amansızlığının və süquta məhkumluğunun göstəricisidir.

Kitab haqqında və Cəlil bəyin ailəsinin başına gətirilənlərdən ətraflı yaza bilərəm. Amma, kitabda müəllif istintaq və məhkəmə materiallarını olduğu kimi verdiyindən hesab edirəm ki, oxucular kitabı oxuduqdan sonra olanlara özləri qiymət versələr, daha doğru olar.

Mən bir daha Cəlil bəyin xalqımızın namus simvolu olduğunu xüsusilə qeyd edirəm. Müəllif Paşa Yaqubun bu kitabı ərsəyə gətirməsini isə, onun xalqımızın irsinə bağlılığı kimi dəyərləndirirəm.

**Zahidə Vulkan (Şəkinski)**
*Azadlığın və Sülhün Müdafiəsi*
*Beynəlxalq Hüquq Təşkilatının nəzdində*
*Siyasi Məhbusların Hüquqlarını Müdafiə*
*Komitəsinin katibi, "Qanunsuzluqla*
*Mübarizə" ÜAİB-nin həmsədri,*
*hüquqşünas, ekspert*





## MÜƏLLİFDƏN GÖYÇAY TARİXİNƏ QISA EKSKURS

Göyçay rayonu Azərbaycan Respublikasının mərkəzində, Şirvan düzünün şimal hissəsində, Böyük Qafqaz dağlarının ətəklərində yerləşir. *«Göyçay»* toponimi əsl türk mənşəli söz olub, sahilində yerləşdiyi Göyçay çayının adından götürülmüşdür. Çayın suyu həddindən artıq şəffaf olduğuna və göy (mavi) rəngə çaldığına görə belə adlandırılmışdır. Bəzi tarixi mənbələrə görə, rayon əhalisi, əsasən, XV əsrdə Türkiyədən köçmüş Qaraman bəylərbəyiliyinin əhalisi hesabına formalaşmışdır. 1859-cu ildə Şamaxıda baş verən zəlzələdən zərər çəkən əhalinin bir hissəsi Göyçayın ərazisinə köçmüş və bununla da yaşayış məntəqəsi genişlənməyə başlanmışdır. Çar hökumətinin Qafqazda apardığı inzibati islahatlar çərçivəsində 1867-ci ilin dekabr ayında Bakı quberniyasının tərkibində Göyçay qəzası yaradıldı. Qəza mərkəzi olan Göyçay yaşayış məntəqəsi isə 1916-cı ildən şəhər adlandırılmışdır. Azərbaycanın rayonlaşdırılması ilə əlaqədar 1930-cu il avqust ayının 8-də Göyçay rayonu təşkil edilmişdir. Göyçay şəhərinin inkişafı təxminən XX əsrin 30-cu illərindən başlanmışdır.

Göyçay rayonunun ərazisində xalqımızın tarixi keçmişini əks etdirən bir sıra abidələr vardır. Rayonun Ərəbcəbirli kəndi ərazisində XII-XIV əsrlərdə inşa edilmiş və Ərəb xilafəti dövrünə aid "Surxay" qalası, İnçə və Ərəbcəbirli kəndləri ərazisində tapılmış və bizim eradan əvvəl II əsrə aid küp qəbirlərinin qalıq-

ları bu ərazidə qədim dövrlərdə insan məskənlərinin mövcud olduğunu sübut edir. XIX əsrin axırlarında inşa edilmiş yer hamamı və 4 məscid də rayonun tarixi abidələri sırasına daxildir. Rayonun ərazisi tikinti sənayesində istifadə olunan təbii ehtiyatlarla zəngindir. Göyçay çayı dərəsinin və Cəyirli kəndinin yaxınlığında çay daşı, çınqıl, qum çıxarılır. Rayonun Qarabaqqal kəndinin ərazisində zəngin gil yataqları vardır ki, bundan da yüksək keyfiyyətli kərpic istehsal olunur.

Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda gedən müharibələrdə göyçaylıar yaxından iştirak etmişlər. Qarabağın Ermənistan silahlı birləşmələrindən azad olunması uğrunda döyüşlərdə göyçaylılar 163 şəhid vermiş, 44 nəfər itkin düşmüş, 106 nəfər şikəst olmuşdur.

***Əziz oxucu!*** Bu gün siz bu kitabda XIX əsrin sonlarından qanlı repressiya illərinə qədər Göyçay rayonunun Qubadlı Şıxlı kəndində yaşamış vətənpərvər xeyriyyəçi Cəlil bəy Cahangir oğlunun mənalı, şərəfli həyat yolundan söhbət açacaq və Stalin repressiyası illərində onun başına gətirilən faciələrlə tanış olacaqsınız.

***Hörmətlə: Müəllif – Paşa Yaqub***





# CƏLİL BƏY

*"Əsaya söykənib gəzən bir qocaya*
*bəzən bir el söykənər".*

Cəlil bəy Cahangir oğlu 1880-ci ildə Bakı quberniyasının Şamaxı qəzasının Göyçay nahiyəsinin Qubadlı Şıxlı kəndində doğulub. Babası Hacı Qubad əslən Borçalı mahalının Şıxlı kəndindən olmaqla, nəsilləri oradan əvvəlcə Qazaxın Şıxlı kəndinə köçmüşlər. Bir müddət burada yaşadıqdan sonra oradan da Göyçayın Mallı Şıxlı kəndinə köçmüşlər. Daha sonra (XIX əsrin ikinci yarısında) isə, indiki Qubadlı Şıxlı kəndinə köçərək, burada məskunlaşmışlar. Bu köçetmələrin səbəbi dəqiq məlum olmasa da, burada bir neçə amil ola bilərdi. Onlardan ən başlıcası kimi, susuzluq, quraqlıq və təbii fəlakətləri (zəlzələ, daşqınlar və s.) göstərmək olar.

Azərbaycan Milli Arxivində apardığımız araşdırmalar göstərir ki, Hacı Qubad Hacı oğlu bu kəndə gəlməzdən öncə kəndin adı Köçəri Şıxlı adlanmışdır. Onların burada məskunlaşmasından sonra isə, kəndin adı Qubadlı Şıxlı olmuşdur. Bunun da səbəbi həmin dövrdə Hacı Qubadın böyük nüfuza və var-dövlətə sahib olması ilə əlaqədardır. Belə ki, kəndin torpaqlarının çox hissəsini Hacı Qubad öz pulu ilə aldığına və tanınmış insan olduğuna görə kənd də tədricən bölgədə onun adı ilə tanınmağa başladı (necə ki, indi də bəzi kəndlər oradan çıxmış məşhur adamların adı ilə tanınır).

Arxiv məlumatlarından görünür ki, 1831-ci ildə Köçəri Şıxlı kəndində ümumi əhalinin sayı 614 nəfər (qadınlarla birlikdə) olmaqla, həmin il kənddən 194 rubl 70 qəpik torpaq vergisi yığılmışdır. Köçəri Şıxlı kənd əhalisinin istifadəsində 2.625 baş iribuynuzlu heyvan olmuşdur. Kənd həmin vaxt Şamaxı qəzasının Xasavyurd mahalının tərkibində olmuşdur *(fond 24; siyahı 1; saxlanma vahidi 347).*

1849-cu ildə isə, Köçəri Şıxlı kəndində 16 ailə (42 nəfər isə, kişi cinsindən olan əhali) yaşamışdır. Həmin vaxt qadınların adları siyahıya salınmayıb *(fond 10; siyahı 1; saxlanma vahidi 17).*

Hacı Qubad böyük var-dövlətə malik olmaqla yanaşı, həm də səxavət sahibi, xeyriyyəçi bir insan olmuşdur. Dövrün çətinliklərinə baxmayaraq, iki dəfə Həcc ziyarətində olan Hacı Qubad həmişə kasıblara, əl tutar, imkansızların ümid yeri olardı. Onun Qubadlı Şıxlı kəndində tikdirdiyi məscid sovet dönəminə qədər dururdu. Hacı öz var-dövlətini Allah yolunda xərcləməyə xəsislik etməzdi. Necə ki, "Quran"ın "Bəqərə" surəsinin 207-ci ayəsində Allah-təala buyurur:

***"İnsanların eləsi də vardır ki, Allahın razılığını qazanmaq yolunda** (Allah rizası üçün) **öz canını fəda edər. Allah öz bəndələrinə qarşı çox mehribandır!"***

Hacı Qubad da Allahın bu cür xeyirxah bəndələrindən olmuşdur. Xurşud, Gülzar və adını bilmədiyimiz üçüncü bir qadınla ailə quran (biri öldükdə digərini alıb) Hacı Qubadın bu qadınlardan dörd övladı





olub. O, XX əsrin ilk illərində Qubadlı Şıxlı kəndində dünyasını dəyişib, qəbri də hazırda kəndin qəbiristanlığındadır.

Hacı Qubadın qardaşı Cahangir Hacı oğlu da sərvət və səxavət baxımından qardaşından geri qalmamışdır. Belə ki, onun Mallı Şıxlı kəndində, Qızılağac və Qubadlı Şıxlı kəndlərində böyük torpaq sahələri olmuşdur ki, orada əhalinin bir hissəsi muzdla işləməklə ailəsini dolandırmışdır. Cahangir də qardaşı ilə eyni dövrdə dünyasını dəyişmiş və qəbri Qubadlı Şıxlı qəbristanlığındadır.



Cahangir dünyasını dəyişəndən sonra onun torpaqları və mal-mülkü 1880-ci il doğumlu oğlu Cəlilə qaldı (həmin vaxt Cahangirin Səməd adlı ögey qardaşı da vardı). Cəlil Cahangir oğlu zəhmətkeş, xüsusi qabiliyyətə və fərasətə malik bir insan olduğundan, atasından miras qalan var-dövləti həddən ziyadə çoxal-

daraq, dövrünün ən zəngin, nüfuzlu adamına çevrilmişdir. Ona görə də camaat arasında ona Cəlil BƏY, yaxud Cəlil ƏMİ deyə müraciət edərmişlər (baxmayaraq ki, onun rəsmən bəylik titulu olmamışdır). Arxivlərdə apardığımız araşdırmalardan görünür ki, Cəlil bəyin Mallı Şıxlı, Qoyunlu Şıxlı, Bığır və Qubadlı Şıxlı kəndlərində yüzlərlə hektar torpaqları, üzüm bağları, min başa yaxın qoyunu, 200 başdan çox at ilxısı, kənddə iki su dəyirmanı, ətraf kəndlərdə və Göyçayda onlarla mağazası, Göyçayda karvansarası, motorlu dəyirmanı, imarəti, Qubadlı Şıxlıda böyük imarətləri, dükanları, şərab zavodu, yüzlərlə baş malqarası və bunlara uyğun da kəlləri, kotanları, arabaları və digər kənd təsərrüfatı alətləri olmuşdur (*Fond 917, siyahı 3, saxlanma vahidi 193; fond 244, siyahı 1, saxlanma vahidi 28*).

Qubadlı Şıxlı kəndinin yaşlı sakinlərindən olan Sədrəddin Həmid oğlu söhbət edir ki, XX əsrin 70-ci illərində İsmayıllı rayonunun Ruşan kəndinə ova getmişdim. Orada Həsən baba deyilən uzunömürlü bir kişi ilə tanış oldum. Mənim Qubadlı Şıxlı kəndindən olduğumu biləndə dedi mən Cəlil bəyi yaxşı tanıyıram, bu dağlarda onun böyük bir at ilxısı vardı. Mən də ilxıya gözdarlıq edirdim. Soruşanda ki, ilxıya bəs vəhşi heyvanlar, oğrular dəyib-dolaşmırdılar ki? Həsən baba dedi ki, ilxının içində 20 ayğır* at vardı, onlar ilxını bütün vəhşi heyvanlardan və oğrulardan qoruyurdular (təhlükəli anlarda ayqırlar bütün ilxını

* minilməmiş, əhliləşməmiş erkək at





mühasirəyə alırlar və heç bir vəhşinin, oğrunun ilxıya daxil olmasına imkan vermirlər). Həm də oğrular Cəlil bəyin xarakterinə bələd olduqlarından onun atına, malına toxunmazmışlar. Belə ki, onun bir heyvanı oğurlanarmışsa, mütləq onu haradan olsa tapdırar və oğrudan başqa yollarla qisasını alarmış. Bu məqsədlə istənilən məbləğdə pulundan və yaxud heyvanından keçərmiş. Ona görə də heç bir oğru onun heyvanına yaxın durmazmış.

Atdan söz düşmüşkən, bir əhvalatı da diqqətinizə çatdırmaq istəyirəm. Cəlil Cahangir oğlunun "Boz at" adlanan məşhur bir atı varmış. Bölgədə həmin atı keçə bilən ikinci bir at yox imiş. Bir gün yolda Ucardan bir bəylə rastlaşır. Bəyin "Polturka" maşını varmış. O, Cəlil bəyə təklif edir ki, gəl boz atla bu maşını yarışdıraq. Şərt kəsirlər ki, boz at keçsə, "Polturka"nın açarını Cəlil bəyə verəcək; əksinə olsa, Cəlil bəy boz atı ucarlı bəyə verəcək. Şərtləşmədən sonra yarış başlayır. Cəlil bəy əvvəlcə maşını bir az qabağa buraxır. Sonra ata bir qamçı vurmağı ilə maşını toza basır... Bəy maşını saxlayıb, açarını Cəlil bəyə uzatsa da, Cəlil bəy həmin adamla dost olduğuna görə açarı almır...

1920-ci illərdə Kürdəmirdə baş verən iğtişaşlar zamanı orada vəzifədə işləyən bir dostu Cəlil Cahangir oğlunun icazəsi ilə həmin boz atı minibmiş. Bakıdan gələn yüksək vəzifəli məmurlardan biri bu atı görüb, kürdəmirli məmurun əlindən alaraq Bakıya aparır. Cəlil bəy atın ardınca Bakıya – Mir Cəfər

Bağırovun qəbuluna gedir. Bağırova deyir ki, ilxımın ayqırını gətiriblər, ilxı qalıb başsız. Demir ki, maşından sürətli qaçan boz atı gətiriblər. Çünki, belə desəydi Bağırov atı qaytarmazdı. Odur ki, məsələnin mahiyyətini bir qədər dəyişməli olur. Mircəfər Cəlil bəyin xahişini nəzərə alaraq (həm də bu yanlış təqdimatdan çaşaraq) qəbz yazıb verir ki, Cəlil Cahangir oğlunun atı özünə qaytarılsın. Göstərişi icra edən aşağı ranqlı məmurlar atı qaytararkən təəccüblərini gizlədə bilmirlər. Çünki, həmin atı Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin rəhbər işçilərinin rayonlara gedərkən minmələri üçün gətirmişdilər (*fond 917, siyahı 3, saxlanma vahidi 193*).

Cəlil Cahangir oğlu zəngin sərvətə malik bir mülkədar olmaqla yanaşı, həm də xalq arasında nüfuzlu bir ağsaqqal kimi qəbul edilirdi. Göyçay nahiyəsinin hansı kəndində insanlar arasında bir dava, mübahisə, münaqişə, yaxud qan düşmənçiliyi yaranardısa, onu sakitləşdirmək, yoluna qoymaq üçün mütləq Cəlil əmiyə müraciət edərdilər. Heç kəs onun sözünü yerə salmazdı. Belə qan davalarından biri də Göyçayda "Dəyirman başı" deyilən yerdə baş vermişdi. Belə ki, orada yaşayan İsa kişinin uşaqları Bahadurla Mamed başqa bir nəsildən bir nəfəri vurub öldürürlər. Həmin nəslin kişiləri də silahlanırlar ki, bu gecə mütləq bu qanı İsa kişinin nəslindən almalıyıq. Vəziyyətin belə çətin və mürəkkəb olduğunu görən və odlu başları sakitləşdirə bilməyən məhəllə ağsaqqalları Cəlil əmiyə sifariş göndərirlər ki, təcili özünü





yetirsin. Xəbəri alan Cəlil bəy boz atı minib Göyçaya doğru çapır. Hər iki nəslin ağsaqqallarını yığıb onlara öyüd-nəsihət edir və barışmağı, bu qan düşmənçiliyini davam etdirməməyi xahiş edir. Beləliklə, İsa kişinin ağsaqqalları ölən tərəfin adamlarından üzr istəyirlər və bağışlanmalarını xahiş edirlər. Qan sahibləri də Cəlil əminin gəlişini nəzərə alıb, onların üzrünü qəbul edirlər. Beləliklə, qan düşmənləri arasında barışıq yaranır.

Söhbətin bu yerində müqəddəs "Qurani-Kərim"in bir ayəsini xatırlatmaq yerinə düşərdi:

***"İçərinizdə insanları yaxşılığa çağıran, xeyirli işlər görməyi əmr edən və pis əməlləri qadağan edən bir camaat olsun! Bunlar** (bu camaat) **həqiqətən nicat tapmış şəxslərdir".*** *"Ali İmran" surəsi, 104.*

Araşdırmalarımız göstərir ki, Cəlil Cahangir oğlu çox namuslu, el qeyrəti çəkən bir insan olmuşdur. Qubadlı Şıxlının yaşlı adamları danışırlar ki, onun qorxusundan heç bir kəs başqasına sataşa, yaxud, artıq-əskik söz deyə bilməzmiş. Belələri qarşılarında Cəlil əmini görərmişlər. Cəlil bəy belə nadürüst adamlardan təcili kəndi tərk etməyi tələb edərmiş. Həmin şəxs o anda tövbə edib, əməlinə son qoyarmışsa və toxunduğu adamdan üzr istəyərmişsə, bağışlanma ehtimalı olurmuş. Əks halda, həmin gün kəndi tərk etməli imiş. Bu xasiyyətinə görə Cəlil əmini arxasızlar özlərinə arxa, köməksizlər kömək bilərmişlər.

1918-ci ilin martında erməni daşnak partiyası ilə bolşeviklər birləşərək Azərbaycanın türk-müsəlman

əhalisinə qarşı qanlı qırğınlar törətdilər. Azərbaycanın bütün bölgələrində on minlərlə günahsız insanların, qadın və uşaqların qətlinə səbəb olan soyqırımı hadisəsindən Azərbaycan tarixində geniş bəhs olunub. Odur ki, biz burada həmin hadisələr vaxtı Cəlil bəyin millət üçün nələr etdiyini qeyd etməyi vacib sayırıq. Belə ki, ermənilər həmin vaxt Göyçaya qədər gələrək, Bığır kəndinin üstündəki yüksəkliklərdə toplarını yerləşdirmişdilər. Buradan ətraf kəndlərin hamısını atəş altında saxlayır, piyada qoşunları isə, kəndlərə girərək, günahsız, əliyalın insanları qətlə yetirir, kəndləri yandırırdılar. Cəlil bəy həmin vaxtı silahlanaraq, qohumlarını və kəndin qeyrətli kişilərini Qubadlı Şıxlı və digər ətraf kəndlərin əhalisinin müdafiəsinə səfərbər etmişdir. O, bununla kifayətlənməyərək, həmin vaxt Azərbaycanlılara köməyə gələn Nuru Paşanın rəhbərlik etdiyi Türk ordusunun ərzaq təminatına və təchizatına öz töhfəsini vermişdir. Belə ki, yaxın dostu, Bakı milyonçusu xeyriyyəçi Hacı Zeynalabdin Tağıyev Cəlil bəyə xəbər göndərir ki, Türk ordusunun ərzaq tələbatını və s. ehtiyaclarını qarşılamaq üçün xeyriyyə kompaniyası keçiririk, nəyə gücün çatırsa kömək elə. Cəlil bəy də xalqının belə çətin günündə ona hər vasitə ilə kömək etməyi özünün şərəf işi bilir. Odur ki, 10 kiloqram qızılı və 20 baş atı etibarlı bir adamı ilə Türk ordusuna yardım olaraq göndərir.

Həmin hadisələr vaxtı Cəlil bəyin əmisi oğlu (Hacı Qubadın oğlu) **Abdulqəfər** də erməni-bolşevik ordusuna qarşı döyüşlərdə qəhrəmanlıqla həlak olur.





Cəlil bəyin xeyirxahlığından, yaxşı əməllərindən söhbət düşəndə yadıma yenə "Quran"ın "Bəqərə" surəsinin 177-ci ayəsi düşür:

*"**Yaxşı əməl heç də** (ibadət vaxtı) **üzünü günçıxana və günbatana tərəf çevirməkdən ibarət deyildir. Yaxşı əməl sahibi əslində Allaha, axirət gününə, mələklərə, kitaba** (Allahın nazil etdiyi bütün ilahi kitablara) **və peyğəmbərlərə inanan,** (Allaha) **məhəbbəti yolunda** (və ya mal-dövlətini çox sevməsinə baxmayaraq) **malını** (kasıb) **qohum-əqrəbaya, yetimlərə, yoxsullara,** (pulu qurtarıb yolda qalan) **müsafirə** (yolçulara), **dilənçilərə və qulların azad olunmasına sərf edən, namaz qılıb zəkat verən kimsələr, eləcə də əhd edəndə** (söz verəndə) **əhdinə sadiq olanlar, dar ayaqda, çətinlikdə** (ehtiyac, yaxud xəstəlik üz verdikdə) **və cihad zamanı** (məşəqqətlərə) **səbr edənlərdir.** (İmanlarında, sözlərində və əməllərində) **doğru olanlardır. Müttəqi olanlar da onlardır!** "Quran", 2: 177.*

Cəlil Cahangir oğlunun xeyirxahlığının başqa bir nümunəsini biz onun haqqında olan məhkəmə sənədlərini araşdırarkən görürük. Belə ki, onun təsərrüfatında aylıq muzdla (o vaxt belə işçilərə muzdur deyirdilər) işləyən İbad Canı oğlu onu tərk edib, kolxoza yazılır və kolxozun heyvanlarını otarmağa başlayır (hansı ki, o heyvanlar da Cəlil bəydən alınmışdı). Buna baxmayaraq Cəlil əmi xeyirxahlıq edərək, İbadı evindən qovmur. Çünki onun evi yox idi. İbad bunu məhkəmə çıxışında etiraf edir ki, hələ bu günə kimi

Cəlil Cahangir oğlunun evində yaşayıram (*Fond 917, siyahı 3, saxlanma vahidi 193)*. Amma, təəssüf ki, İbad Canı oğlu, Namət Məhəmməd oğlu... kimi avam kəndlilər yerli kommunist-bolşeviklərin (Mahmud Nuh oğlunun, Məhəmmədəmin Səfəralı oğlunun...) fitnəsinə uyaraq, xalq üçün canından və malından keçməyə daim hazır olan bir xeyriyyəçiyə, el ağsaqqalına şər-böhtan atmaqdan çəkinməyiblər. Yalandan üzünə duraraq, onu həbs elətdiriblər. Beləliklə, Cəlil bəyin özünün və oğlunun həyatının məhv olunmasına, bütün xanimanının xarabalığa çevrilməsinə səbəb olublar...

Məhkəmə sənədlərindən aydın olur ki, yerli bolşeviklər Cəlil bəyi qıcıqlandırmaq, şərləmək üçün hər cür vasitələrə əl atıblar. Bu vasitələrdən biri də onun vergi borcunun qəsdən şişirdilməsi, haqsız yüklənməsidir. Belə ki, Cəlil bəyin torpaqlarının və var dövlərtinin hədsiz çox olduğu vaxtlarda ondan 500 (beş yüz) manat naloq alınırdısa, torpaqları və mülkləri müsadirə olunduqdan sonra vergi azalmaqdansa, əksinə, Mahmud Nuh oğlu kənddə kommuna sədri olduqdan sonra, vergini artıraraq 1800 manat etmişdir. Məhkəmədə Cəlil Cahangir oğlu bunun səbəbini Mahmuddan soruşduqda Mahmud cavab verir ki, mənim vaxtımda sənin əkin yerin çox idi, ona görə artıq naloq gəldi (?).

Sual yaranır: **Cəlil Cahangir oğlunun hər il onlarla hektar torpağı əlindən alındığı halda onun əkin yeri necə arta bilərdi? Əksinə, azalmalı idi.**





Görünür Cəlil Cahangir oğlunun milləti üçün, elobası üçün etdiyi xeyirxahlıqlar, ermənilərə qarşı hər vasitə ilə apardığı mübarizələr Şaumyanın, Mikoyanın, Kirovun və onların Qubadlı Şıxlıda olan davamçılarının (1920-ci illərdə yaranmış kommuna üzvlərinin) maraqlarına uyğun gəlmirdi ki, onu və onun kimi digər xeyriyyəçiləri şərləyərək məhv etdilər.

Umumiyyətlə, Azərbaycanda kommunist-bolşeviklər hakimiyyətə gəldikdən sonra millətimizə qarşı 1918-ci il soyqırımını başqa bir formada - ziyalılarımızı, zənginlərimizi, xeyriyyəçilərimizi, bir sözlə, bu millətə canı yanan, onun yolunda nəsə edə bilən kimlər varsa, hamısını repressiya etməklə davam etdirməyə başladılar. Və nəticədə 70 il ərzində millətin "üzünün qaymağı"nı məhv etdilər, onun genefonduna sağalmaz yaralar vurdular. Hansı ki, bu gün biz bunun ağrısını çəkirik.

Cəlil Cahangir oğlunun başına gətirilən müsibətlər bunun bariz nümunəsidir. Bu müsibətlər və kommunist bolşeviklərin cinayətlərinə əyani şahid olmanız üçün növbəti səhifədə Cəlil bəyin və oğlu Cahangir bəyin məhkəmə sənədlərini oxuculara təqdim edirik.








## İSTİNTAQ PROTOKOLU

1930-cu sənə 14 fevralda Göyçay şəhərində mən Şirvan mahalının I nahiyə müstəntiqi **Bağırov** C. V. m. m. 131, 132-ci m. m. riayət edərək, həmin 121 nömrəli işdə aşağıdakı şəxsləri müqəssir qismində istintaq etdikdə bunları göstərdilər:

**Cəlil Cahangir oğlu** - *51 yaş, evli, bisavad, bitərəf, əkinçi, Qubadlı Şıxlı kənd sakini, hökumət vergisini verməməsinə görə məhkum olunmuş, hüquqdan məhrum, öhdəsində 11 baş ailə üzvü - dördü işləyən:*

-Nə barədə mənim müqəssir olmam mənə bildirildi. Hansı ki, özümü müqəssir bilməyib, göstərirəm: mən əsla kolxoz təşkilatı əleyhinə əks təbliğat aparmamışam. Mənim Şura hökuməti gələn zaman bir tağar taxıl yerim əlimdən alınıb, öz qoruğum isə, 16 desyatin özümdə qalmışdır.

Mən kolxozun tayasını yandırmamışam və nədə yandırtmamışam. Tayanı yandıran şəxslər qanunla cavab verməlidirlər. Bu işləri mənim üçün düzəldən Mahmud Nuh oğlu olmuşdur. Hansı ki, o, 5-6 il bundan qabaq bizim kəndimizdə kənd şura sədri olmuşdur. Ondan qabaq da, hələ qulluqda yox idi, mənim oğlum Cahangirlə mal pambığa girmək üstə dalaşmışdılar. Dalaşarkən oğlum Mahmuda bir qapaz vurmuşdur. Onun üstündə bu illərdə Şura sədri olan zamandan ta bu vaxtadək bizimlə tutaşmışdır. Və bir dəfə

mənim oğlumu heç bir şey üstə məhkəməyə vermişdi, sonra işi geri götürdü.

Əlavə heç bir sözüm yoxdur. İmza:



***Fond 917, siyahı 3, saxlanma vahidi 193, vərəq 32***





**Cahangir Cəlil oğlu** - *az savadlı, bitərəf, Qubadlı Şıxlı kənd sakini, əkinçi, məhkum olunmamış, atası ilə bir yerdə yaşayan, hüququ alınmış* -

-Nə barədə müqəssir olmağım mənə bildirildi. Hansı ki, özümü müqəssir saymayıb, göstərirəm ki, mən əsla kəndimizdə kolxoz əleyhinə heç bir əks təbliğat aparmamışam. Kolxozun ot tayasının yanmağını mənim üstümə yıxırlar. Bu da düz deyil. Əvvəla, həmin ot kolxozun olmayıb və ikincisi, həmin ot işi məhkəmədə, ya da sizdədir. Hansı ki, həmin işdə mənim adım yoxdur. Ot yandırmaq üstə üç nəfər bizim kəndçilər tutuldular. Mənim adım əvvəllər heç bu işdə olmayıb. Sonradan kim məni də bu işə qoşmuşdur, onu da bilmirəm. Mənim kəndimizdə heç bir kəslə ədavətim yoxdur. Kimlər məni dolaşdırıb, onu da bilmirəm. Ancaq Mahmud Nuh oğlu ilə mən 1922-ci ildə pambuğumuza mal girməsi üstə dalaşmışdıq və 1927-ci ildə də yenə su üstə dalaşdıq. Odur ki, zənn edirəm məzqur bizim kəndimizdə olan dostları Məhəmmədəmin Səfəralı oğlu, Namət Məhəmməd oğlu və Əli Niftalı oğlu vasitəsi ilə bu işləri mənim üçün düzəldər. Bunlardan başqa mənim üzümə şahid duran olmaz. İfadəm oxundu, əlavə sözüm yoxdu

İmza:

Müstəntiq: Bağırov.

*Fond 917, siyahı 3, saxlanma vahidi 193, vərəq 32-33 .*



***Fond 917, siyahı 3, saxlanma vahidi 193, vərəq 33 .***





## İTTİHAM QƏRARI

1930-cu il fevralda Göyçay şəhərində mən Şirvan mahalının I nahiyə xalq müstəntiqi J. Bağırov Ucar rayonunun Qubadlı Şıxlı kənd sakini Cəlil Cahangir oğlu və oğlu Cahangir Cəlil oğlu cinayət cəza məcəlləsinin 72-ci maddəsinin 2-ci bəndi ilə müqəssirlənmələri barədə icraatımda olan 121 nömrəli cinayət işini mütaliə edib, nəzərdən keçirdikdə tapdım:

1929-cu ilin mart ayında Qubadlı Şıxlı kəndində kollektiv təsərrüfatı təşkil olunur. İbtidai təşkilatda kolxoza 16 nəfər üzv yazılır. 10-11 ay davam edən həmin kolxozun bir nəfər də olsun üzvləri artmayaraq, öz əvvəlki formasında qalır. Kolxoz üzvlərinin artmamasının səbəbini bəzi kolxoz üzvləri hiss edirlərsə də, fəqət, bildiklərini qorxularından heç bir kəsə söyləmirlər. Fəqət, bu axır zamanlarda hökumətin kulaklara qarşı apardığı kəskin mübarizəsi başlanandan sonra, həmin işlər də yavaş-yavaş meydana çıxmağa başlayır. İşdə olan materiallardan aşkar olunur ki, Qubadlı Şıxlı kəndində kolxoz üzvlərinin artmasına maneçilik törədən həmin kəndin məşhur kulak, istismarçısı və sərvətdarı Cəlil Cahangir oğlu və Cahangir Cəlil oğlanları olmuşlar. Hansılar ki, kəndlərində kolxoz təşkil olunan gündən kasıbların arasında əksinqilabi şayiələr yaymaqla, bəzilərini qorxudaraq, onların kolxoza daxil olmasına imkan verməmişlər. Müttəhimlər Cəlil və Cahangir həddən ziyadə nüfuzlu və əqrəbalı olduqlarından, həm də Çar və Müsavat hökumətləri

dövründə camaatın bağrını yardıqları üçün onların gücünü bilib, əks-təbliğatlarını daha da gücləndirmişlər. İş o yerə yetişir ki, bir gün Cəlil öz kəndçisi İbad Canı oğluna demişdir ki, “A köpək oğlu, sən də artelə üzv oldun? Bu gün, sabah bu soyğunçu hökumət sənin iki mitilin varsa, onu da əlindən alasıdır. Yenə boynunuzu büküb, mənim qapıma gələcəksiniz”. Əlavə Əli Niftalı oğluna deyirmiş ki, “Bu hökumət müvəqqətidir, gəlin sizə kəl, kotan, torpaq verim, gedin əkin becərin, kolxoza yazılmayın”. Namət Məhəmməd oğluna demişdir ki, “Kolxoz-molxoz nədir? Bu hökumət gedəcək. Müvəqqəti bir şeydir. Bizim başlı adamlarımız başqa hökumətlərə gediblər, oradan adam gətirib, bu hökuməti qovacaqlar”. Bunlardan başqa Cəlil Cahangir oğlu kəndçilərə zülm edərək, işlətdikləri muzdurlar İbad Canı oğlu və Əli Niftalı oğlunun haqqını verməmişlər. Ümumiyyətlə, Cəlil və oğlu Cahangir kolxozun işinə maneçilik törətməkdən başqa, hökumətin kəndə doğru apardığı bütün siyasətinin əleyhinə çıxmışlar. Həmçinin, o, cərgə üsulu ilə pambıq əkilməsinin əleyhinə olmuşdur. Hökumət tərəfindən kəndçilərdən tələb olunan vahid vergiləri, həmçinin dəyirman vergisini verməyərək, acıqla dəyirman daşlarını maliyyə şöbəsinə gətirərək, vergi əvəzinə verməyə çalışmışdır. Buna görə məhkəmə ona 6 ay iş kəsmişdir. Şübhəsiz Cəlilin bu cür hərəkəti onu sübut edir ki, məzqur hökumətin sərəncam və qərarlarına boyun əymək istəmirmiş. Bunların hamısından keçdikdən sonra, bu keçən yayda Cəlil oğlanları vasitəsi





ilə Məhəmmədəminin tayasını yandırmışdır. Cəlilin keçmişinə gəlincə məzqur həddən ziyadə dövlətli, kulak və istismarçıdır. Onun sürü ilə atı, minlərlə qoyunu, Göyçayda karvansarası və motor dəyirmanı, evləri və neçə desyatin ilə əkin torpaqları olmuşdur. Şübhəsiz, belə bir şəxs ki, keçmişə nisbətən malı, dövləti, torpaqları və hakimiyyəti əlindən çıxmasından bir dəqiqə də olsun Şura hökumətinin xətt-hərəkətindən ziddiyyət törətməsindən geri durmaz və kənddəki hökumət siyasətlərinə qarşı çıxardı.

Müttəhimlər Cəlil və Cahangir özlərini həmin işdə müqəssir saymayaraq, bəraət qazanmaq üçün göstərirlər:

-Həmin bu işi onların əleyhinə düzüb-qoşan Ulaşdı Şıxlı kənd sakini Mahmud Nuh oğlu olmuşdur. Fəqət göstərdiklərində isə sübutlu bir şey yoxdur.

İbtidai istintaq əsnasında əldə edilən materiallardan və işin bütün xüsusiyyətlərindən aşkar olur ki, Ucar dairəsinin Qubadlı Şıxlı kənd sakini **Cəlil Cahangir oğlu** *51 yaşında, evli, bisavad, bitərəf, əkinçi, Qubadlı Şıxlı kənd sakini, hökumət vergisini verməməsinə görə 6 ay məhkum olunmuş, hüquqdan məhrum, öhdəsində 11 baş ailə üzvü - dördü işləyən;*

**Cahangir Cəlil oğlu -** *az savadlı, bitərəf, Qubadlı Şıxlı kənd sakini, əkinçi, məhkum olunmamış, atası ilə bir yerdə yaşayan, hüququ alınmış* - 1929-cu ildə kəndlərində kolxoz təşkil edilən gündən bu günədək kolxoz təşkilatı əleyhinə camaat arasında əks təbliğat aparmaqla bərabər, kolxozun artmasına və qüvvətlən-

məsinə maneçilik göstərmişlər. Eyni zamanda hökumətin kəndə doğru siyasətinin ziddinə olaraq çalışmışlar.

Məzqurların irtiqab etdikləri bu cinayətlər cinayət cəza məcəlləsinin 72-ci maddəsinin 2-ci bəndində mülahizə edilmiş bir cinayət tərkibidir. Müttəhimlər həmin 121 nömrəli işdə kafi dərəcədə müqəssir olduqları üçün C. İ. M. M. 26-208-ci maddələrini rəhbər tutaraq qət etdim:

-Həmin iş Şirvan mahalının Müddəi Ümumiliyi vasitəsi ilə Mahal Mühüm İşlər Xalq Məhkəməsinə mühakimə etmək üçün təqdim edilsin.

Göyçay həbs evində təht tefikidə saxlanılan məhbus Cəlil Cahangir oğlu və Cahangir Cəlil oğlunun bu gündən etibarən Müddəi ümumiliyinin ixtiyarına keçirilməsinə dair həbs evinə xəbər verməli.

Xalq müstəntiqi: /J. Bağırov/

MƏHKƏMƏ İCLASINA DƏVƏT OLUNACAQ ŞƏXSLƏRİN SİYAHISI

Müqəssirlər:

1. Cəlil Cahangir oğlu ..........həbs evində.
2. Cahangir Cəlil oğlu..........həbs evində.

Şahid və şikayətçilər

1. Məhəmmədəmin Səfəralı oğlu - Qubadlı Şıxlı;
2. Mahmud Nuh oğlu – Ulaşlı Şıxlı;
3. İbad Canı oğlu – Qubadlı Şıxlı;
4. İbrahimxəlil Manaf oğlu – Qubadlı Şıxlı;





5. Süleyman Süleymanov – Şəadət kəndində;
6. Əli Niftalı oğlu – Qubadlı Şıxlı;
7. Namət Məhəmməd oğlu – Qubadlı Şıxlı;
8. Əli Hacı Məhəmməd oğlu – Qubadlı Şıxlı;
9. Siracəddin Cəbrail oğlu – Qubadlı Şıxlı;
10. Abdulhəşim Həşim oğlu – Qubadlı Şıxlı;
11. Ağaverdi Cəlil oğlu – Qubadlı Şıxlı;

Xalq müstəntiqi: /J. Bağırov. /

YOXLAMA

Həmin işdə məhbus vardır. Mülki iddia və əşyayi-dəlil yoxdur.

Xalq müstəntiqi: /J. Bağırov./

*Fond 917, siyahı 3, saxlanma vahidi 193, vərəq 37-38.*



***Fond 917, siyahı 3, saxlanma vahidi 193, vərəq 38.***





## AKT

1930 sənə, 3 yanvar. Qubadlı Şıxlı kəndi.

Biz - aşağıda imza edənlər intizab edilmiş komissyon üzvləri:

1. Nəsrulla Səməd oğlu.
2. Məhəmmədəmin Səfəralı oğlu.
3. Əli Niftalı oğlu.
4. Namət Məhəmməd oğlu.
5. Həmid Haşım oğlu.
6. Kommuna sədri Mahmud Nuh oğlu.
7. Mahal inzibati şöbə rəisinin müavini Qara Pirimov.

Yoldaşların iştirakı ilə tərtib edirik həmin aktı ondan ötəri ki, Qubadlı Şıxlı kənd sakini Cəlil Cahangir oğlunun mallarını siyahı üzrə aşağıdakı qaydada hesaba alıb, kolxoz sədri Məhəmmədəmin Səfəralı oğluna təhvil verdik.

Cəlil Cahangir oğlunun əmvalı:

1. Sağmal və boğaz inəklər - 8 və 3 baş;
2. İnək düyəsi - 4 baş;
3. Camış- sağmal - balası ilə 1 baş;
4. Kəlçə - 1 baş;
5. Kəl qoşqu üçün - 3 tay;
6. Madyan at - 7 baş;
7. Qulan və dayça - 3 baş;
8. Erkək at - 2 baş;
9. Dişi qoyun - 20 baş;
10. Keçi - 9 baş;

11. Quzu - 5 baş;
12. Su dəyirmanı - 2 əd;
13. Kəl arabası - 1 əd;
14. Dəmir kotan - 1 əd.

Bu siyahıda göstərilən malları təhvil aldım. İmza:

Təhvil verdim: Qara Primov.

İştirak edənlər və komissiya üzvləri:

**Qeyd:** Göstərilmiş mallardan lazımi qədər istifadə edilmək məsuliyyəti komissiya üzvlərinin və kolxoz sədrinin öhdəsinə verilir.

Surət əslilə düzdür: katib, imza.

*Fond 917, siyahı 3, saxlanma vahidi 193, vərəq 91.*







***Fond 917, siyahı 3, saxlanma vahidi 193, vərəq 91.***

## Şirvan Mahal Mühüm İşlər Xalq Məhkəməsinə

*Məhbus Cahangir Cəlil oğlu Qubadlı Şıxlı kənd sakini tərəfindən*

**Məlumat**

Bununla məlumunuz olsun ki, mən 121 nömrəli iş üzrə müqəssir olub, ittiham qərarı verilərək qeyd olunmuşdur ki, mən kolxozun tayasını yandırmışam. Doğrusu həmin taya yanmış, fəqət, taya kolxozun yox, Məhəmmədəmin namın özünün olmuşdur. Əlavə edim ki, taya yanan vaxt, yəni, 29-cu sənə avqust ayının 5-ci günü mən Müsüslü kəndində Mikayıl Mikayılovgilə getmişəm. Gecə qalmışam, yanımda olub Mikayıl namın əmisi Mustafa Mikayıl oğlu və Məlik İsayev. Və ayın 6-cı günü qayıdıb-gəlib, tayanın yanmasını bilmişəm. Mənim Mikayılgilə getməyimin səbəbi bu olmuşdur ki, məzqurda mənim 90 rubl pulum olub, onu almağa getmişəm.

Xahiş edirəm məhkəmə iclasına yuxarıda adları zikr olunan şəxsləri şahid sifətində dəvət edəsiniz.

15. 02. 1930.

İmza:

*Qaynaq: fond 917, siyahı 3, saxlanma vahidi 193, vərəq 60.*





## Şirvan Mahal Mühümm İşlər Xalq Məhkəməsinə

Müqəssir hesab edilən mən - **Cahangir Cəlil oğlu** taya yandırılması məsələsində Müsüslüdə olmağımı isbata yetirəm və əlavə kolxoz işçisi Mahmud Nuh oğlu ilə 1927-ci ildə savaşdığımdan, həmin vaxtdan bu günə kimi mənimlə pis keçindiyini isbata yetirən aşağıda göstərilən şəxsləri məhkəmə iclasına şahid qismində dəvət etmənizi rica edirəm:

1. Mikayıl Mikayılov.
2. Mustafa Mikayıl oğlu.
3. Məlik İsayev.
4. Qara Səfəralı oğlu.
5. Şamil Cahangir oğlu.
6. Əhmədalı Məhəmməd oğlu.

15 fevral, 1930 sənə.

İmza: Cahangir Cəlil oğlu.

*Qaynaq: f. 917, siyahı 3, saxlanma vahidi 193, vərəq 59.*

## PROTOKOL
## İş № 317

### 1930-cu il 19 fevral Göyçay şəhərində Şirvan Mahal məhkəməsinin açıq iclasında heyət ibarətdir:

**Sədr:** Ə. Ö. Məmmədov;
**Xalq iclasçıları:** 1) İ. İsayev; 2) Ağaseyid Kaçayev;
**Prokuror müavini:** Quliyev;
**İctimai töhmətçi:** C. Ələkbərov;
**Katib:** Məhəmmədzadə.

**Cəlil Cahangir oğlunun** və **Cahangir Cəlil oğlunun** cinayət məcəlləsinin (c.m.) 72-ci maddəsinin 2-ci bəndi ilə müqəssirlənmələri barədə olan 317 nömrəli işə rayət verilir. İclas saat 1-də açıq elan edildi.

Müqəssirlər özlərinə məxsus yerləri tuturlar.

**Müdafiəçiləri**-müdafiun heyət üzvü B. K. Atakişiyevdir.

İşə dəvət edilən şahidlərin məhkəmədə olduqları müəyyən oldu.

İşə baxılmaq barədə tərəflərə sual olunduqda, tərəflər etiraz etmədilər.

Müdafiəçi Atakişiyev vəsatət verdi ki, Əhmədəli Məhəmməd oğlunu şahid qismində işə cəlb etsin. Çünki, məzqur təsdiq edəcək ki, Cəlildən öz haqqını buğda ilə almış muzdurdan həmin buğdanı satın almışdır. Və Məhəmmədəmin tayası yanmaq barədə





şahid qismində çağırılsın Həmid Haşım oğlu və Soltan Murad oğlunu, Kəmaləddini və Səlim Hacı Əmrah oğlunu hansı ki, Məhəmmədəmin ilə Cəlilin arasında olan şəxsi ədavəti təsdiq edəcəklər. Həmçinin əvvəlki kolxoz üzvləri Nəsrulla Səməd oğlunu, Əli Soltan oğlunu, Baba Kazım oğlunu və həmşəri Məhəmmədi şahid qismində dəvət etsinlər. Onlar təsdiq edəcəklər ki, Cəlil Cahangir oğlu kolxoza zərbə vurmağa çalışmayıb və Mahmud Nuh oğlu ilə Cəlil Cahangir oğlu arasında şəxsiqərəzlik var. Qubadlı Şıxlı sakini Qara Səfəralı oğlu Cahangirin 5 avqustda kolxozun ot tayası yanan vaxt Müsüslüdə olduğunu təsdiq edər. Müsüslü kənd sakini Mikayıl Mikayılov və Məhəmməd Mikayılov Mehdi İsayevi də şahid kimi dəvət etmənizi xaiş edirəm.

*Müddəi ümumi:* Əhmədəli Məhəmməd oğlunun şahid qismində çağrılmasına etiraz etmirik. Ancaq vəsatətdə adı çəkilən xüsusatlar (hallar) barədə göstərilən şahidlərin dəvət edilməsinə etiraz edərək, bildiririk ki, həmin xüsusatlar barədə işdə materiallar var. Hansı ki, məhkəmədə aydınlaşacaqdır. Onların bir daha şahid qismində çağırılması lüzumsuzdur. Ona görə rədd edilməsini xahiş etdi.

Məhkəmə yuxarıda deyilənləri nəzərə alıb, müşavirədən sonra qərara aldı:

-Cəlil Cahangir oğlu ilə Məmmədəmin və Mahmud Nuh oğlu arasında münasibətlər məhkəmənin gedişində aydın olacağından, müdafiəçinin xahişi rədd edilsin. Əhmədəli Məhəmməd oğlu muzd əvəzinə

Cəlildən buğda almasını təsdiq etmək üçün dəvət olunsun.



***Qaynaq: f. 917, siyahı 3, saxlanma vahidi 193, vərəq 63***





Məhkəmə sədri müqəssirləri C. M-nin 72-ci maddəsinin məzmunu ilə tanış etdi. Müqəssirlər müstəntiqin qərarının surətini almış olduqlarını söylədilər. Məhkəmənin tərkibinə etiraz etmədilər.

Məhkəmə sədri işdə olan son qərarı oxuyub, asan dil ilə müqəssirlərə izah etdi.

**Cəlil Cahangir oğlu** - *51 yaşında, Qubadlı Şıxlı kənd sakini, əvvəllər məhkum olunmuş, səsdən məhrum, kulak, vergi vermədiyinə görə 6 ay məhkum olunmuş -*

-Özünü müqəssir bilməyərək göstərir ki, mən Qubadlı Şıxlı kəndində yaradılan kolxoz əleyhinə heç bir əks təbliğat aparmamışam və heç kəsə deməmişəm ki, bizim başqa ölkədə olan adamlarımız gələcəklər və bu hökuməti dağıdacaq, sizin təşkil etdiyiniz kolxoz da dağılacaqdır. Həmçinin, aqronom üsulu ilə pambıq əkilməsinə qarşı çıxmamışam. İbad Canı oğlu mənim yanımda üç il quzu otarmaq üçün muzdur olub. Ona iki il qoyunların südünü vermişəm və bir ilin haqqını buğda ilə vermişəm. Əli Niftalı oğlu mənim yanımda muzdur olmayıb və onu tövləyə salıb döyməmişəm. Torpaq bölünməsinə qarşı da əks-təbliğat aparmamışam. Kolxoz haqqında da deməmişəm ki, kolxoz arvadları da müştərək ("şərikli" – *müəllif.)* edəcək. Məhəmmədəmin Səfəralı oğlunun ot tayasını və tövləsini də mən yandırmamışam, nə də oğlum Cahangir yandırmayıb. Məhəmmədəminin tövləsinin yanmasında Abdulhəşim Həşim oğlundan da şübhələnmişdi.



***Qaynaq: fond 917, siyahı 3, saxlanma vahidi 193***

Kolxozun düzəlməsinin mənə bir ziyanı yoxdur. Mənim hal-hazırda 15 desyatin torpağım var. Bu işləri mənim üzərimə yıxan Mahmud Nuh oğludur. Ona





görə ki, məzqur mənim oğlum Cahangir ilə çəltik suyu üstündə dalaşmışdılar. Hansı ki, bu il Mahmud Nuh oğlu məni pambıq əkməyə qoymadı. Göyçayda əmim oğlu ilə ortaqlı 22 dükanım vardı və bir karvansaraya malik idim. Bir təzə motorlu dəyirman almışdım, işlədəndə sınıq çıxdı. Odur ki, sınıq elan olunmalıdır. Bu sınıq dəyirmanın üstündə mənə həddindən artıq naloq (vergi) gəlmişdi. Dəyirmanın daşının sınıq olmasını göstərmək üçün arabaya qoyub, gətirdim qəza maliyyə şöbəsinin qapısına düşürdüm.

*Müddəi ümumiyə:* - Mənim Şura hökumətindən qabaq 150 qoyunum, 20 başdan çox atım və 20-yə qədər qara malım vardı. İndi isə, 2 tay kəlim, 6 atım, 10 qoyunum var. Torpaq bölgüsündə bir taqarun yeri əlimdən çıxıb. 1928-ci ildə mənə vahid vergi 1800 manat gəlmişdi. Onu iki hissədə verəcəkdim. Əvvəlinci hissədən 350 manat vermişdim. Qalanına möhlət istədim. Mahmud Nuh oğlu mənim 100 baş damazlıq qoyunumu gətirib bazarda satdı. Pulunu naloqa götürdü. Dəyirmanın daşları sınıq olduğu üçün məndən naloq alınmadı. Həmin daşlar qəza maliyyə şöbəsinin qabağında iki ay qaldı. Mərcan adlı kəlim var.

Göyçay bazarında 11 dükanım, bir karvansaram və bir evim vardı, hansılar ki, 1920-ci ildən hökumət alıbdır.

*İctimai töhmətçiyə:* - Mən Göyçaya hər gün işim olanda gəlirəm. Əli İsa Ağa Mirzəyevgilə gedən deyiləm, mənim tayım deyil. O, Cahangir ilə dostdur. Bazarda atlı olaraq hökumət acığına at sürməmişəm.

*Cəlil Cahangir oğlu hakimin sualına cavab olaraq bildirir:*

- Mənim bir rəs atım vardı. Kürdəmir hadisəsində qəza ispolkomu minmişdi. Ondan alıb Bakıya aparmışdılar. Ona görə Bakıya gedib, Bağırovdan alıb gətirdim. Mən kolxoza zidd deyiləm. Çünki, əkməyə başacan torpağım var. Ona görə də kolxoz düzəlməsiylə mənə zərər olmaz. Keçmiş təsərrüfatıma zərərdir, indiki təsərrüfatıma zidd deyildir.

*Müddəi-ümuminin sualına cavab olaraq:*

-Mənim ilxım vardı, zavod üçün saxlayırdım. 11 dükanımı hökumət aldı. Kənddə heç kəsə deməmişəm ki, Məmmədəminin tayasını mən yandırmışam. Kənddə üç çeşmə evim var, 12 baş ailəm yaşayır.

**Cahangir Cəlil oğlu** -*24 yaşında, az savadlı, bitərəf, əkinçi, səsdən məhrum, məhkəməyə düşməmiş şəxs*

Özünü müqəssir bilməyib göstərir ki, mən kənd içərisində, camaat arasında kolxoz əleyhinə əks-təbliğat aparmamışam. Əli Niftalı oğlunun bizdə muzdur olması mənim yadıma gəlmir. İbad nam adlı muzdur bizdə quzu otarırdı. Quzu otarmağının əvəzində iki ildə ona süd vermişdik. Mən öz təsərrüfatımızı azyaşlı qardaşlarımla becərirəm. Qoyunları qardaşım otarardı, atlarımızı nobatçı naxıra buraxırdıq. Mən uşaq olanda eşidirdim ki, atam motorlu dəyirman qurdurur. Ancaq motoru sınıq oluğuna görə işləmədi. Hökumətin kəndə doğru siyasətinə qarşı və kolxoz işlərində təbliğat





aparmamışam. Çar dövrü mən balaca uşaq idim, yadımdadır, su dəyirmanımız vardı, daşlı idi. Birinin daşı sınıq idi. Sınıq daşlı dəyirmana naloq qoyulmuşdu və naloq da ağır idi. Ona görə də daşları hökumətə göstərmək üçün atam gətirib atmışdı maliyyə şöbəsinin qabağına.



*Məhkəmə sədrinə:* - Məhəmmədəminin tayası yanmasından nə mənim, nə də atamın xəbəri yoxdur.

*İctimai töhmətçiyə:*

- Atam kolxoz əleyhinə əks-təbliğat aparmamışdır, onun barəsində pis bir söz danışmamışdır. İş çox olanda atam bizə kömək edərdi. Biz 12 baş ailəyik, üç çeşmə evdə yaşayırıq.

Mən Mahmud Nuh oğlu ilə camaət suyu üstə dalaşmışdıq. Mahmud Nuh oğlu onda mənim üstümə tapança çəkmişdi.

*Məhkəmə tənəffüs elan etdi. Axşam saat altının yarısında iclas davam edir.*

**Mahmud Nuh oğlu -** *Ulaşlı Şıxlı kənd sakini, Ulaşlı Şıxlı kommunasının sədri, müqəssirlərə yad*

-*G*östərdi ki, 1925-ci ildə mən partiya məntəqə sədrliyinə təyin edilmişdim. Mənə təhkim olunmuş kəndlərə gedib-gəlirdim. Bir gün gördüm bağı-bərəni odlayırlar. Dedim, nədən ötəri odlayırsınız? Hansılar ki, Cəlil Cahangir oğlu Bərgüşad camaatına təbliğat aparıb ki, sizin suyunuzu Ulaşlı, Qubadlı Şıxlılar kəsiblər. Onlar da gəlib kəndin bağ-bərəsinə od vurublar. Mən onlar barədə akt tərtib etdim. Məhkəmə də Cəlil nama 2 ay iş kəsdi. 1926-cı ildə Cəlilin 35 desyatin torpağı əlindən çıxdı. Mən Bakıda olanda Cəlil Cahangir oğlu camaat arasında təbliğat aparırmış ki, ingilislər gələcək, sizi ingilis yəhəri ilə minəcəyəm. Bundan ötəri akt yazıb, prokurorluğa vermişdik.







Əlindən alınan torpaq barədə camaata deyirdi ki, sizə verilən mənim və qeyrilərinin yerlərini əkməyin, sizə haramdır. Ona görə də camaat əkmədi. Cəlil Cahangir oğlu özü həmin yerləri yenidən əkmişdi. 1927-ci ildə torpaq şöbəsindən 400 desyatin qışlaq götürmüşdü. Ona naloq gəlmişdi. Naloqu vermədiyinə

görə ona faiz gəldi. Sonra onun iki atını satıb naloquna hesab etdik.

Sonra 1926-cı ildə Cəlilə dəyirman barəsində naloq gəlmişdi. Ondan ötəri dəyirmanın daşlarını araba ilə gətirib maliyyə şöbəsinin qabağına atmışdı və mənim özümə Cəlil dedi dəyirmanın naloqunu verməyə qüvvəm çatar, ancaq, daşları gətirib buraya atmaqda məqsədim budur ki, hökumətin insafsızlığını sübut edim. Hansı ki, həmin daşlar iki il maliyyə şöbəsinin qabağında qaldı. Həmin daşın üstündə məhkəmə ona altı ay cəza vermişdi. Sonra Ali Məhkəmə onun cəzasını 100 manat cərimə ilə əvəz etmişdi. Cəlilə 1800 manat vahid vergi gəlmişdi. Onu vermədiyinə görə məhkəmə yenə ona 6 ay cəza verdi. Gedib Bakıda cəzasın çəkib gəldi. 1929-cu ildə hökumət əleyhinə təbliğatına görə, kolxoz barəsində kəndçilər deyirdi ki, Cəlil deyir ki, kolxoz təşkil etməyin, kolxozdan bir şey çıxmaz. Yaxşı şeydir, qulluqçular özləri kolxoz olsunlar. Kolxoz təşkil olanda arvadlar da müştərək olacaq. Kəndçilərə əlavə edirdilər ki, kolxoz təşkil etməyin, axırı bu hökumətdən bir şey çıxmayacaq. Axırı başqa bir hökumət gələcək. Həmçinin, Cəlil Cahangir oğlu camaat arasında təbliğat aparırdı ki, torpaqları birləşdirmək şəriət baxımından halal deyildir. Kolxozu təşkil etməyə gedəndə Cəlil camaatı başına toplayıb məscidə getdi, gəlmədilər. Axırı 7 nəfər muzdur ilə kolxozu təşkil etdik. O gün ki, Cəlil həbsə alındı, camaat kolxoza üzv oldular. Bu da göstərir ki, Cəlil qoymurmuş kolxoz təşkil olunsun. Mən kolxozu





təşkil etdim. Sonra Cəlilin əmvalını (əmlakını *-müəllif*) kolxozun nəfinə alınması qərara alınmışdı. Oğlu Cahangirin tutulmasını camaat istəmişdi. Cəlilin 8 atı, 8 inəyi, 4-5 düyə, 3 baş camış, 3 tay kəl, 50 baş qoyunu müsadirə olundu. Bunlarla birlikdə 8 çeşmə evi də alınıb, külfətini başqa yerə köçürdüblər. Cəlil Cahangir oğlu bütün zəhmətkeşləri özünə işlədib, haqqını verməyib.

Mən Cəlili 1920-ci ildən tanıyıram. 1920-ci ildə Cəlilin 8 min pud mahlıcı, bir çaxır zavodu zəbt edildi. Əmisi oğlu ilə birlikdə 22 dükanı və bir karvansarası vardı. Onlar da alınmışdı. 150 baş da qoyunu alınmışdı. Qızılağac kəndində 20 desyatin, Mallı Şıxlı kəndində, eşitdiyimə görə 150 desyatin torpağı vardı. 1920-ci ildə həmin torpaqları ondan alındı.

Cəlilin Şura hökuməti zamanından səsi yoxdur. Qubadlı Şıxlı yeri yaxşı torpaqdır, ancaq təsərrüfatları çox geridir. O da Cəlilin təbliğatının nəticəsindədir. Mən Qubadlı Şıxlı kəndində 4 il Kənd Şura sədri olmuşam. Cəlilin təbliğatı nəticəsində mən bu kənddə hökumətin direktivlərini həyata keçirə bilməmişəm. Qubadlı Şıxlıda təsərrüfat pambıqçılıq və üzümçülükdür. 1800 manat naloqu qəsdən vermirdi.

Cəlil Cahangir oğlu qeyd etdi ki, mənim 600 pud pambığımı hökumət siyahıya alıb. Hansı ki, pulun da almışam. Naloq mənə əvvəllər 500 manat olub. Amma Mahmudun vaxtında 1800 manat olubdur.

Mahmud cavab verdi ki, mənim vaxtımda əkin yeri çox idi, ona görə artıq naloq gəldi (?).

***Qeyd:*** *Cəlil Cahangir oğlunun hər il onlarla desyatin torpağı əlindən alındığı halda onun əkin yeri necə arta bilərdi? Əksinə, azalmalı idi.*

Cahangir sual verir ki, mən ot tayasında heyvanlara ot qoyduğum yerdə sən gəlib mənə söymədinmi?

Mahmud cavab verir ki, söyməmişəm. Camaat danışırdı ki, Cahangir kolxozu qoymur düzəlsin. Mənə Məhəmmədəmin deyibdir. Ən çox düşdüyüm ev Murad da deyirdi belədir.

*İctimai töhmətçiyə:* - Cəlil Cahangir oğlu hər gün oğlu Cahangirlə at belində gəlirdilər Göyçayda Əli İsa Ağa Mirzə oğlunun evinə. O həm də kənddə mollalar ilə əlaqə edir. Cəlil öz atını minib raykom və ispalkomun qabağından bərk sürməklə hökumətə acıq verir.

*Prokurora:* - Kənddə mənə dedilər ki, Cəlil danışır ki, kooperativə gələn malları qulluqçular öz aralarında paylaşırlar. Bu xüsusda camaat arasında həyəcan vardı.

*Müdafiəçiyə:* - Cəlilin Qızılağacdakı torpağı alınıb, indi 16 desyatin yeri qalıb. Kolxozun tayası yananda Cəlillə Cahangir kənddə olublar. Bunu özüm görməmişəm, camaatdan eşitmişəm. Cəlilin yanında kəndin yoxsulları işləyirdilər.

**Məhəmmədəmin Səfəralı oğlu-**
*Qubadlı Şıxlı kənd sakini,*
*müqəssirlərdən Cəlilin əmisi*
*oğlu, kolxoz sədri-*

-Göstərir ki, 1920-ci ildə Şura hökuməti gələndən sonra və 1922-ci ildə Cəlil qoymadı yer bölünməyə.





Deyirdi mən bu yerləri qızıl pul verib almışam, sizə haramdır. 1924-cü ildə Əhməd Əliməmməd oğlu, Əli Əliməmməd oğlu, öz qayını Namət Məhəmməd oğlu, Şamil Cahangir oğlu, Yusubalı və Əli Niftalı oğlunun adına yerləri çevirdi. O məqsədlə ki, onlar onsuz da o yerləri əkə bilməyəcəklər, yenə özü əkəcək. Necə ki, icarə haqqı kimi məzqur şəxslər Cəlilə icarə haqqı verirdilər. 1926-cı ildə camaat istədi ki, adı çəkilən şəxslərdən torpağı alsınlar. Cəlil qoymadı. Sonra gəlib injiner böldü. Cəlilin ayağında 16 desyatin yer qaldı. 1927-ci ildə Cəlil Bərgüşad camaatına demişdi ki, Qubadlı Şıxlı camaatı sizin suyunuzu kəsibdir. Onlar da gəlib kənddə çal-çəpəri yandırdılar.

1928-1929-cu illərdə torpağı gübrələmək üçün camaata zimik gəlmişdi, heç kəs istəmədi. Yığmağa yer də tapmadıq. Aparıb məscidin həyətinə yığdıq. Sonradan aqronom mənə dedi ki, camaatın zımıki götürməməsinin baiskarı Cəlildir.

**Kənddə cərgə ilə pambıq əkmək üçün hər desyatinə 7 manat haqq verilməli idi. Camaatdan yığa bilmədim. Cahangir də 14 manat verəcəkdi.** Ondan pulu istədikdə, məni vurmaq istədi. Pulu ala bilmədim. 1929-cu ildə kolxoz təşkil ediləndə camaata nə qədər etdimsə, kolxoza girmədilər. Yoxsullardan bir qrup topladım. Cəmi 14 adam oldu. Kolxozun təşkil olunmasına mane olan Cəlil idi. Hansı ki, Cəlil Cahangir oğlu mənim özümə dedi ki, kolxoz təşkil olanda bir gün evə gələndə görəcəksən ki, evin qapısında şapka var. Onda biləcəksən ki, evdə başqa kişi

var. Mən ona dedim ki, səni tutduraram. O da mənə dedi ki, səni öldürərəm. Bundan sonra kolxozun tayası və tövləsi yandı. Amma mən bu vaxt bayıra çıxmadım. Şabanla Şamil Cahangir oğlu gəlib mənə dedilər ki, tayanı yandıran Soltanmurad və Həmiddir. Mən də onlardan şikayət etdim və həmin adamları mən tutdurdum. İki-üç gün keçəndən sonra öz-özümdən anladım ki, onların barəsində bu iş nahaqdır. Ona görə də məzgur tutulan adamları buraxdırdım. Bir gün Namət Məhəmməd oğlu mənə dedi ki, Cəlil deyir ki, Məhəmmədəminə söylə ki, dinc otursun, necə ki, tayasını yandırmışam, özünü də öldürərəm.

Sonra yoldaş Ələkbərov gələndə mən kolxozun düzəlməməsinə səbəb Cəlil Cahangir oğlu və onun oğlu Cahangirin olduğunu dedim. Ondan sonra Cəlil və Cahangir tutuldu. Bunlar tutulandan sonra camaat hamısı kolxoza girdilər.

*İctimai töhmətçinin sualına cavab olaraq:*

- Şura hökuməti gələndən bəri Cəlilin səsi kəsikdir.

*Müdafiəçinin sualına cavab olaraq:*

-Cəlil mövhumat işlərinə qarışırdı, deyirdi yerləri başqalarından almayın, haramdır. Onu necə əkib-biçib yeyəcəksiniz?

Cəlilin səkkiz xam atını, üç dayça, bir camış, bir kəlçə, üç tay kəl, səkkiz inək, on yeddi qoyun və keçisini kolxoz nəfinə yatırmışıq.

*Cəlil Cahangir oğlunun sualına cavab olaraq:*





- Kənd yoxsullarına deyib ki, gəlsinlər ağac verim, aparsınlar ev tiksinlər. Namət mənə dedi ki, Cəlil deyir tayasını yandırdım, dinc otursun. Cahangir mənim qoruğumda çəltik əkməyib, öz qoruğunda əkişdi. Zımıx qəbul olunmamasını mənə aqronom təlimatçısı xəbər vermişdi ki, Cəlil qoymayıb. Cahangirin kolxoz əleyhinə təbliğatı barədə dairəyə xəbər vermişəm.

*Məhkəmə tənəffüs elan etdi.*
*İclas davam edir.*

**İbad Canı oğlu** - *əvvəllər muzdur, indi kolxoz üzvü, müqəssirlərə yad*

-Göstərir ki, həmin il Abbas Abbasov kolxoz təşkil etməyə gələndə Cəlil Cahangir oğlu Abdulhaşım Haşım oğluna və Siracəddin Cəbrayıl oğluna yolda dedi ki, kolxoza girməyin. Onlar da Abbasov kolxoz barədə məruzə edəndə durub iclasdan çıxdılar. Camaat da onlara baxıb, durub getdilər. Üç il bundan qabaq mən Cəlilə muzdur işləmişəm, ayı 30 manata. Haqq olaraq beş qoyun vermişdi. Qalan pulumu vermədi. Axırıncı il ucuz tutduğu üçün işləmədim.

Cəlilin torpağından kəsilib verilmişdi yoxsullara. Onlar da həmin yerləri əkməyib, qaytardılar Cəlilə. Ancaq nə səbəbə qaytardıqlarını bilmirəm.

Mən kolxoza girmək istəyəndə Cəlil dedi girmə, çörək tapmayacaqsan, ac qalacaqsan.

Məndən başqa da Cəlilin muzduru çox olub. Şura zamanı Əli Niftalı oğlu da onun muzduru olub. Əlinin

qardaşı Allahverdi ilə Cəlilin arasında bir söz olduğunu eşitməmişəm.

*Müddəi ümumiyə-* Cəlilin yanında olan vaxt onun Şura hökuməti əleyhinə olan hərəkətindən məlumatım yoxdur.



Mən Cəlilin yanında muzdur olanda mənimlə 6 nəfər muzduru vardı. O vaxt 300 qoyunu, atı, qara malları çox idi.





Bu saat da mən Cəlilin evində oluram. Kolxozun heyvanlarına baxıram.

Cəlilin iki dəyirmanı vardı. Hər dəyirmanın iki daşı. İndi dəyirmanlardan biri işləyir.

Əli Hacı Niftalı oğlu və Namət Məhəmməd oğlu mənə dedilər ki, Cəlil deyir sizi Mərcan camışla qoşub əkin əkdirəcəyəm.

Mən Məhəmməd Ağa oğlundan eşitdim ki, Cəlil deyirmiş kolxoza girməyin, girənlərin arvadları da müştərəkləşəcək.

Camaat suyu üstə Mahmud Nuh oğlu ilə Cahangir Cəlil oğlunun dalaşdıqlarını eşitmişəm. Akt bağlayıb məhkəməyə verilmişdi. Sonda nə olduğunu bilmədim.

*Cəlil Cahangir oğlunun sualına cavab olaraq:* - Nə mənim cicim, nə də mən Cəlildən haqq olaraq nə süd, nə də buğda almamışıq.

*Cahangir Cəlil oğlunun sualına cavab olaraq:* - Məmmədəmin mənim anamı almışdı. Məmmədəmini Mahmud Nuh oğlu hökumət işi ilə əlaqədar çağırsa, çağırışına gedər.

Yoldaş Abbasov kolxoz üçün çağıranda gəlmədikləri üçün, kooperativ kitabçası paylanacaq adı ilə çağırmışdılar. Ona görə camaat gəlmişdi. İclasdan iki nəfər durub gedəndə camaat da onlara baxıb, durub getdilər.

**İbrahimxəlil Manaf oğlu-**
*Qubadlı Şıxlı kənd sakini, kolxoz üzvü, Cəlilə uzaq qohum-*

-Göstərir ki, Cəlil Cahangir oğlu kənd içində kulakdır, dövlətlidir, camaata zəhmət verəndir. Yer böl-

güsü zamanı cürbəcür təbliğat aparıb, camaatı dağıdırdı ki, torpaqları əlindən çıxmasın. Camaata deyirdi ki, mənim pul ilə aldığım yeri alıb başqası əkərsə haramdır. Özgənin yerini alıb əkməyin. Bu sözləri mənim yanımda demişdi.

Cəlilə gələn naloqları hökumət ondan çətinliklə alırdı.

Cəlilin iki dəyirmanı vardı, hərəsinin iki daşı. Bir dəyirman əmisi oğlu Məhəmmədlə ortaq idi. Dəyirmanın daşlarından biri sınıq idi, özüm görmüşdüm, iki parça idi.

*Məhkəmə sədrinin sualına cavab olaraq:*

- Mən kolxoza bu il üzv olmuşam. 13-cü adam mən idim.

Mənə bir dəfə Cəlil dedi ki, sən də kolxoza girirsənmi? Dedim girirəm. Eyham ilə gülə-gülə dedi ki, bu qoca vaxtında sən də kolxoza girirsən, gir.

*Məhkəmə üzvünə:* - Cəlilin bir rəs atını gizlətməsini eşitmişəm.

*Məhkəmə sədrinə:* - Mən keçmiş vaxtlarda və Şura hökuməti zamanı Cəlildən qorxurdum, indi isə, qorxmuram.

*İctimai töhmətçiyə:* - Cəlilin bir arvadı vardı.

*Müdafiəçiyə:* - Mən Cəlildən eşitməmişəm ki, kolxoza girənlərin arvadları da ortaqlı olacaq.

*Cəlilin sualına cavab:* - Cəlil oğru tərəfdarı olmayıb.

*Cahangirin sualına cavab*: - Cahangirin Mahmudla dalaşmasını eşitmişəm.

*Məhkəmə 5 dəqiqə tənəffüs elan etdi.*

*İclas davam edir.*







**Əli Niftalı oğlu** - *kolxoz üzvü, Qubadlı Şıxlı kənd sakini, tərəfeynə yad-*

-Göstərdi ki, bu il kolxoz təşkilatı başlananda Cəlil Cahangir oğlu əks təbliğat aparırdı. Mənə dedi ki, kolxoza girməyin, çünki, girsəniz hökumət başsız bir hökumətdir. Mallarınızı yığıb aparacaq. 1924-cü ilə qədər Cəlildən qorxurdum - Mahmud Nuh oğlu bizim kəndə partiya sədri gələnə qədər.

Torpaq bölgüsündə camaata deyirdi ki, yeri mən öz pulumla almışam, onu siz alıb əkməyin, haramdır. Şəriət buna yol vermir. Qoyun mallarını da hökumətə vermək istəmirdi. Yeni üsul ilə yer əkmək barədə də əks-təbliğat aparırdı. Deyirdi cərgə ilə əkməyin, çünki, hökumət ondan xərc alacaq. 1923-cü ildən Cəlilin muzduru olmuşam. Sonra onun yanından çıxıb, Mahmud Nuh oğluna kuryer işlədim.

*Məhkəmə üzvünə:* - Cəlil naloqu öz xoşu ilə vermirdi. Camaat da ona baxıb, vaxtlı-vaxtında naloq vermirdilər. Kolxoz təşkilinə, yer bölgüsünə qarşı əks-təbliğat aparırdı. Səlim Hacı Əmrah oğluna və qeyrisinə danışırdı ki, zimikdən yerə bir mənfəət yoxdur, onu külək aparacaq.

Qardaşım Allahverdini Cəlilin uşaqları döymüşdülər. Döyüləndən iki il yarım sonra vəfat etdi. Vəfat etməmişdən qabaq qarnı pozulmuşdu. Xəstəxanaya verdim. Ordan çıxandan ay yarım sonra vəfat etdi.

*Müdafiəçiyə:* - 1926-1927-ci illərdə torpaq şöbəsindən gəlib məndən, Usubalıdan və Namətdən torpa-





ğı geri aldılar. Hansı ki, bizə verilən torpağı əkməyə qorxdum.

*Müqəssir Cahangirin sualına cavab*: - Qardaşm bir dəfə İstisuya getmişdi.



**Namət Məhəmməd oğlu-**
*Qubadlı Şıxlı kolxoz üzvü, müqəssirlərə biganə*

- Göstərir ki, Cəlil Cahangir oğlu zülmkar olub, camaatı daim incitmişdir. Onun torpağından mənə, Əli Niftalı oğluna və qeyrilərinə alınıb verilmişdi. Bizə deyirdi ki, torpağı mən pulumla almışam, sizə onu əkmək şəriətlə haramdır. Yerləri cərgə ilə əkməyə də razı deyildi ki, hökumət cərgə pulu alır. Əli Hacı Niftalı oğlu Cəlilin rəncbəri idi. 1926-cı ildən 1928-ci ilə qədər mən də onun rəncbəri olmuşam.

*Məhkəmə üzvünə:* - Cəlil Cahangir oğlu bacarsa hökumət ilə davaya girişər.

*Müddəi umumiyyə:* - Cəlil və Cahangir tutulandan sonra kəndimizdə kolxoz düzəlmişdir. Kolxoz sədri Məhəmmədəmin mənim yeznəmdir.

*Məhkəmə tənəffüs elan etdi.*

*Axşam saat 7-də iclas davam edir.*

**Siracəddin Cəbrayıl oğlu-**
*əkinçi, kolxoz üzvü, müqəssirlərə yad-*

-Göstərir ki, 3-4 il bundan irəli torpaq bölgüsü komissiyonuna üzv idim. Cəlilin bir çox torpaqlarını Şamil Cahangir oğluna verdim və bunun kimi başqalarına da.

Cəlilin torpaqlarından alınıb Şamilə verilmişdi. Şamil verilmiş torpağı əkmirdi. Həmin torpaq injiner sözü ilə Şamildən alınıb Cəlilə qaytarıldı və Cəlil özü





əkməyə başladı. Başqalarına da verilən torpaqları əkmirdilər. Torpaqlarının əlindən alınmasından Cəlilin acığı gəlirdi. Mənə dedi ki, zərər yoxdur, mənim torpaqlarımı camaata bölürsünüz, vaxt gələr ziyanın çəkərsiniz.

Cəlil naloq vermirdi, onun qoyunlarını keçən il satıb, naloqa verdilər.

*Müddəi ümumiyə:* - Cəlil Şura hökumətini istəməyən bir adamdır.

*Müdafiəçiyə:* - Cəlil mənə el yolunda deməyib ki, atanızı yandıraram kolxoza girsəniz.

*Məhkəmə sədrinə:* - maliyyə şöbəsinin qabağına atılan dəyirman daşı bir tərəfindən sınıq idi.

*Cahangirin sualına:* - Zimik torbasının Nabirli Mecid apardığını, Məhəmmədəli ondan tapıb gətirdiyini dedilər.

Şahid ilə İbad Canı oğlu üzləşdirildi.

**Əli Hacı Məhəmməd oğlu-**
*Qubadlı Şıxlı kolxoz üzvü, müttəhimlərə uzaq qohum, orta kəndli -*

-Göstərir ki, bu işdən bir şey bilmirəm. Mən bir dəfə tutulmuşdum. Musanın kəlini oğurlamışdım, məni dörd ay tutdurmuşdu.

*Məhkəmə sədrinə:* - Cəlil tutulandan sonra kəndimiz rahatdır. Mənə də torpaq çatıb. Özüm əkirəm. Cəlilin bir dəfə naloq üstə qoyununun satılmasını eşitmişəm. Cəlillə mənim aram yoxdur.







*Müddəi ümumiyə:* - təhqiqatda məni danışdıran adam məni hədələmişdi. Abdulhəşimi də tutmuşdular.

*Müdafiəçiyə:* - Cəlil mənə deməyib ki, kolxoza girməyin, böylə sözü Cəlil mənə deyə bilməzdi. Dərhal hökumətə xəbər verərdim. Məhəmmədəminin tayasının yanması barədə başa adam tutulmuşdu. Hansı ki, Murad deyirdi ki, taya kömürün düşməsindən yanıb.

İbad göstərir ki, Əli Cəlilin qohumudur. Belə ki, Cəlilin əmisi oğlunun qızı Əlidədir. Şahidlə İbad üzləşdirilir, deyir ki, səni iclasa mən çağırmışam. Camaatı knijka adına çağırmışdıq.

*Əli müdafiəçiyə:* - Abbasov gələndə kooperativ knijkası verməyə gəlmişdi, nəinki kolxoz məsələsi.

**Abdulhaşım Haşım oğlu-**

*Qubadlı Şıxlı kənd sakini, orta kəndli, müqəssirlərə qohum* -

-Göstərir ki, mən bu işdən heç nə bilmirəm.

*Müddəi ümumiyə:* - Cəlilin dəyirman daşını gətirib bazara atmasını eşitmişəm. Onun naloq üstə məhkəmədə işi olduğunu, qoyunlarının satıldığını eşitmişəm. Cəlilin çoxlu atları, xiyabanı vardı, naloq verməyə qüvvəsi çatardı. Mən bir ay olar kolxoza girmişəm.

*Məhkəmə sədrinə:* - Kolxoz düzəltməyə Abbasov gəlmişdi, məni Astan çağırmışdı.

*İbadla üzləşdirdikdə:* İbad Abbasovun gəlməsini və kooperativ knijkası veriləcəyini, iclasa gəlib, orada kolxoza girməyib, çıxıb getdiyini dedikdə;







*Abdulhaşım cavabında:* - Məni çağıran Astan olub. İclasa gəldiyini və payız əkinin götürəndən sonra kolxoza girəcəyimi deyib getdim.

*Müdafiəçiyə:* - Cəlil Əhmədin doqquz baş malını tapıb və oğurlanan atı Zubskidən tapıb gətirib sahibinə verdiyini eşitmişəm.

*Cahangirin sualına cavab*:- Məhəmmədəminin tayasının yanmasını yolda Cahangirə atla gələndə Əli xəbər verdi.

**Ağaverdi Cəlil oğlu -** *Qubadlı Şıxlı kənd sakini, müqəssir Cəlilin oğlu -*

-Göstərir ki, mən bu işdən bir şey bilmirəm. Əkinçilik edirəm. Naloq üstə qoyunlarımızı satmışdılar. Bizim bir dəyirmanımız var. Biri də var, daşı sınıqdır. İbad bizdə muzdur olub, quzu otarıb. Onun haqqına süd və 15 pud buğda vermişik. Əli Niftalı oğlunun qardaşı vardı – Allahverdi adında, ölüb. Onu biz döyməmişik.

**Əhmədəli Məhəmməd oğlu** *– Qubadlı Şıxlı kənd sakini, müqəssirlərə yad –*

-Göstərir ki, İbad Cəlilin yanında muzdur olub, 15 pud buğdaya quzularını otarmışdır. Cəlildən aldığı 15 pud buğdanı mənə satdı. Xırmandan sonra idi. Satanda dedi Cəlildən almışam, əmək haqqımdır.

İbad ilə şahid üzləşəndə İbad dedi ki, Əhmədəli Cəlilin qohumudur.







Şahid cavab verdi ki, doğrudur, Cəlilin qızı qardaşımdadır.

İbad deyir mən Əhmədəliyə buğda satmamışam.

Əhmədəli cavab verir ki, bu alqı-satqıya Məhəmməd Ağa oğlu, Həsənəli Məhəmməd oğlu, Əli Astan oğlu şahiddirlər. Onları çağırın gəlsin.

Şahidləri çağırdıqda heç birisi tapılmadı.

Müdafiəçi xahiş edir ki, həmin şahidlər bu gün burada idilər, indi isə, nədənsə yoxdurlar. Ona görə də, necə ki, məhkəmə onların danışdırılmasını lazım bilib, hər halda onların şahidliyi işə böyük əhəmiyyətlidir deyə, qərar verib, onların şəhadətini məhkəmə almalıdır.

Müddəi ümuminin müavini cavab nitqində Cəlilin daşı gətirib maliyyə şöbəsinin qabağına tullamasını etiraf etdiyindən müdafiəçinin vəsatətinin rədd olunmasını xahiş etdi.

Məhkəmə nəzərə alaraq ki, məhkəmənin gedişində bir sıra şahidlərin göstərməsilə və həmçinin müqəssir Cəlil namın ifadəsində dəyirman daşını gətirib maliyyə şöbəsinin qabağına atıbdır. Ona görə məhkəmə öz əvvəlki qərarını dəyişib, həmin şahidlərin dəvət edilməsini qərara aldı.

Müddəi ümumi xahiş etdi:

-Ərəbcəbirli məntəqə Şura sədri necə ki, Şura sədridir, Cəlilin kənddə necə işlədiyini bilər. Ona görə o çağırılıb şahid qismində danışdırılsın.

Məhkəmə qərara aldı ki, adı çəkilən şəxs danışdırılsın.

**Süleyman Süleymanov** –
*Şura sədri, müqəssirlərə biganə* -
-Göstərdi ki, kolxoz təşkil olunanda Cəlil danışıb ki, siz kolxoza girməyin. Çünki, kolxoz olanda arvadlar birləşəcək və evə gələndə görəcəksən ki, qapıda şapka var. Onda biləcəksən ki, evdə başqa adam var. Kooperativlərdə çit, qənd, çay və qeyri şeylərin az olmasını əlində dəstavuz tutub. Cəlil danışırmış ki, kooperativə gələn şeyləri qulluqçular alır, kənçilər qalıb ərzaqsız. Siz də gedin kooperativi dağıdın. Kitay məsələsi vaxtı camaata söyləyirmiş ki, hökumətin ərzağı qurtarıb, bu gün-sabah dağılacaq. Kolxoza girməyin.

*İctimai töhmətçiyə:* - Cəlil özü heç işləmir, həmişə Bakıda, Göyçayda olur.

*Müdafiəçiyə:* - Kolxoz təşkil etməyə gələn Ələkbərov idi. Cəlil bir neçə dəfə tutulub, qədərin bilmirəm. Həmişə kolxozun əleyhinə gedirdi.

Mənim idarəmdə olan doqquz para kənddə Cəlilin nüfuzu var və orada nümayəndələri var - Potu kəndində Kor Mirzə, Ulaşlı Şıxlı kəndində Məhəmməd Dostməmməd oğlu.

Müdafiəçi vəsatət verdi ki, həmin şahidlər məhkəməyə dəvət edilsin.

Müddəi ümumi cavab verir ki, müdafiəçinin vəsatətdə adını çəkdiyi şahidlərin işə aidiyyəti yoxdur. Ona görə müdafiəçinin vəsatətinin rədd edilməsini xahiş etdi.





*Məhkəmə qərara aldı:* “Müdafiəçinin xahişi rədd olunsun”.

Müdafiəçi Cəlilin naloqu barədə maliyyə şöbəsindən verilən arayışı məhkəməyə təqdim etdi. Məhkəmə qəbul edərək, onu işə əlavə etdi.

Məhkəmə istintaqı bitmiş hesab etdi və tənəffüs elan etdi.

Səhər saat 10-da iclas davam edir.

Münaqişə üçün söz verildi prokuror müavini yoldaş Quliyevə.

Prokuror müavini sinfi mübarizə barədə etdiyi nitqin axırında göstərdi ki, Cəlil hökumət əleyhinə hər daimə əks-təbliğat aparmışdır. Əməli surətdə mövhumat ilə kəndlilər arasında fəsad çıxarması üçün fövqəl dayə hədli cəza verilməsini tələb etməklə, Cahangir Cəlil oğlunun haqqında 10 il şədid təcridli cəza verilməsini təklif etdi.

Söz verildi İctimai töhmətçi Ələkbərova.

Yoldaş Ələkbərov nitqinin axırında proletar sinfi adından Cəlil Cahangir oğlunu və həmçinin, oğlu Cahangiri də güllələnməyə məhkum edilmələrini xahiş etdi.

Söz verildi müdafiəçi B. K. Atakişiyevə.

Müdafiəçi öz nitqi ilə həmin işdə 72-ci maddənin 2-ci bəndinin əsası olmayıb, c. m. 108-ci maddəsinin 2-ci bəndi ilə baxılmalıdır. Ona görə Cəlil haqqında c.m. 108-ci maddəsi üzrə təqsirlənməsini və Cahangir Cəlil oğluna bəraət verilməsini iltimas etdi.

Söz verildi prokuror müavini yoldaş Quliyevə.

Yoldaş Quliyev cavab nitqinin axırında yenə öz əvvəlki mövqeyində durduğunu bəyan etdi.

Söz verildi İctimai töhmətçi Ələkbərova.

Ələkbərov cavab nitqində yenə öz əvvəlki sözündə durduğunu göstərdi.

Söz verildi müdafiəçi Atakişiyevə.

Atakişiyev cavab nitqində yenə əvvəlki sözündə durduğunu bəyan etdi.

Son söz verildi müqəssir Cəlil Cahangir oğluna.

Cəlil Cahangir oğlu bu işi özünə böhtan olmasını göstərib, təqsirkar olmadığından, özünə bəraət verilməsini iltimas etdi.

Söz verildi Cahangir Cəlil oğluna.

Cahangir Cəlil oğlu bu işdə təqsiri olmadığını deyib, məhkəmədən rəhm istədi.

Məhkəmə müşavirə otağına getdi və qayıdıb öz hökmünü elan etdi *(hökm işə əlavə edilib).*

İclas qapandı.

Sədr:

Katib:

*Fond 917, siyahı 3, saxlanma vahidi 193.*





**HÖKM**

Azərbaycan Yc. S. C. namindan.

1930 sənə, 19-21 fevral, Göyçay şəhəri, Şirvan mahal məhkəməsi, ibarətdir:

Sədr: Mamedov Ə. Ö.

Məhkəmə üzvləri: 1. İsayev Y.

2. Hacıyev S.

Prokuror müavini: Quliyev N.

İctimai töhmətçi: Ələkbərov C.

Katib: Məmmədzadə.

Açıq məhkəmə iclasında Cəlil Cahangir oğlunun və Cahangir Cəlil oğlunun c. m. 72-ci maddəsinn II bəndi üzrə müqəssir olmaları barədə 312 nömrəli işi rayət edərək, işdə olan və məhkəmə istintaqda toplanan materialları və işin bütün xüsusatını təhlil və müzakirə etdikdə, tapdıq:

-Şirvan mahal, Ucar rayon Qubadlı Şıxlı kənd sakini Cəlil Cahangir oğlu Çar zamanından başlayaraq, müzdurların, rəncbərlərin və yoxsul kəndlilərin zəhmətlərindən artıq dərəcədə istifadə etməklə, özünə böyük təsərrüfat və kapital toplamağa müvəffəq olmuşdur. Otuza qədər zavod atları, 300 damazlıq qoyunu, 60 baş iri və xırdabuynuzlu heyvanları, bunlara nisbət kənd təsərrüfatı alətləri, 4 daşdan ibarət su dəyirmanı, 40 desyatin əkin yeri, 10 desyatin üzüm bağı və xiyabanı, 10 otaqdan ibarət ev və başqa mülkləri öz yaşadığı Qubadlı Şıxlı kəndində əldə etməklə bərabər, istismarçılıq nəticəsində öz sərvətini daha da

artırmağa çalışmışdır. Məsələn, Qızılağac, Mallı-Şıxlı kəndlərində külli miqdarda əkin yerləri, Göyçay şəhərində motor dəyirmanı, karvansaray, on bir ədəd dükan almışdır. 1920-ci il aprel inqilabından sonra kəndlərdə və şəhərlərdə sinfi mübarizə nəticəsində Cəlil Cahangir oğlunun topladığı sərvət və gəlir mənbələri azalmağa başlayır: Şəhərdəki motor dəyirmanı, karvansarayı, dükanları, min pudlar ilə təmiz pambığı hökumət tərəfindən alınır.

Lakin yeni iqtisadi siyasət əsasilə, Cəlilin öhdəsində yenə böyük təsərrüfat və istehsal qüvvələri qalırsa da, fəqət, yeni iqtisadi siyasət üsuli ilə Cəlilin təsərrüfatı ilə mübarizə aparılır, yəni, artıq torpağı, mədaxilinə görə böyük vergilər alınmalı olur və siyasi tərəfdən həmin vaxt səsdən məhrum edilir. Digər tərəfdən kəndin yoxsul və muzdur təbəqələrinə cürbəcür güzəştlər və yardımlar göstərməklə, Şura hökuməti muzdurların yaşayışı və muzd şəraitini yaxşılaşdırmaqla, onların hüquqlarını özlərinə bildirərək, muzdurlar, yoxsullar ilə ortabab kəndçilər arasında sinfi ittifaq yaratmaq sahəsində bir çox müvəffəqiyyətlər əldə edə bilmişdir. Bunun nəticəsi olaraq sinfi mübarizə get-gedə Qubadlı Şıxlı kəndində kəskinləşməyə başlamışdır. Bunun qarşısında Cəlil Cahangir oğlu rahat dayana bilməyib, özünün sinfi düşmənçiliyini açıq və gizli surətdə düşünərək, kənddə proletar hökmranlığı sinfi mübarizəsinin qarşısında kontur mübarizəyə girişir və bu sahədə heç bir əksinqilabi hərəkətlərdən çəkinməyərək proletar hökumətinin iq-





tisadi və siyasi cəhətcə zəifləməsi və devrilməsi yolunda aktiv surətdə çarpışır. Bu məqsədlə hökumətin kənddə apardığı siyasətlərinin əleyhinə zəhmətkeş kəndlilərin avamlığından istifadə edərək, cürbəcür dini-mövhumati təbliğatlar və provakasiyalar aparmaqla, hökumətin direktivlərinin həyata keçirilməsinə böyük maneçiliklər törətmişdir.

1922 sənədə hər bir yerlərdə torpaq bölgüsü getdiyi halda, Qubadlı Şıxlı kəndində Cəlilin təbliğatı nəticəsində torpaq bölgüsü baş tutmamışdır və Cəlil artıq torpağı öz öhdəsində saxlayaraq, kəndliləri istismar etməklə 1926 sənəyə kimi mənfəətbərdar olur. 1926 sənədə torpaq quruluşu kəndlərdə ciddiləşdiyindən, Cəlilin başqa kəndlərdə və Qubadlı Şıxlıda olduğu torpağı 35 desyatindən artığı alınıb torpaqsız kəndlilərdən Əli Əliməmməd oğluna və başqalarına təslim edilirsə də Cəlil onların arasında belə bir təbliğat aparır ki, həmin yerlər onun məxsusi pulu ilə alınan yerdir, şəriət yol vermir ki, özgənin xüsusiyyətinə malik olasan. Haramdır və bir parasını qorxutmaqla ki, Şura hökuməti müvəqqəti hökumətdir, bu məhv olasıdır. Sonra hökmranlıq məndə olanda sizi kəl əvəzində əkin yerlərində işlədəcəm...

Odur ki, kəndlilərdən çoxu Cəlilin təbliğatı nəticəsində o yerlərdən 1928-ci ilə kimi mənfəətbərdar olmamışdır. Sonradan çox çətinliklə torpaqlar Cəlildən alınmışdır. Hökumətin vergi siyasətinə gəldikdə, Cəlil bu sahədə az əks hərəkətlər etməmişdir. Cəlildən tələb edilən dəyirman vergisini öz vaxtında aparıb vermə-

işdir. Əvəzində dəyirmanın daşını çıxarıb, araba ilə Göyçay şəhərinə gətirib, maliyyə şöbəsinin qabağına tullayıb. Cəlilin vergi əleyhinə apardığı təbliğatı nəticəsində Qubadlı Şıxlı kəndində başqalarından da vergilər vaxtında hökumətin kassasına toplanmamışdır və bununla da Cəlil hökumətin maliyyə siyasətinə böyük zərbə vurmuşdur.

Bunlardan əlavə kənddə yeni üsul ilə cərgəvi əkinlər əleyhinə, həmçinin, zimıx vasitəsilə yeri köbərtmə işlərində Cəlil əks-təbliğatlar aparmışdır. Əlavə kəndlilər arasında cürbəcür əksinqilabi şayələr və provakasiyalar: -"Bu soyğunçu hökumət tezliklə dağılacaq, İngilis hökuməti gəlir və qeyri..."- kimi təbliğatlar aparmaqla, Şura hökumətinin kənddə zəifləməsinə çalışmışdır. Bu yaxın zamanlarda Ucar rayonunun tamamən kollektivləşməsi münasibətilə Qubadlı Şıxlı kəndində kolxoz təşkili əleyhinə əks təbliğatlar aparmaqdan çəkinməmişdir. Odur ki, kəndlilərin əksəriyyəti kolxoz olanda arvadlar da birləşəcək və qeyri kimi, Cəlilin təbliğatı nəticəsində kolxozdan qaçmışlar. Lakin, Cəlil və oğlu Cahangir həbsə alınandan sonra, zəhmətkeş kəndlilər yüz faiz kolxoza daxil olmuşlar və hətta Cəlilin və oğlu Cahangirin sürgün olunmaları və əmvallarının müsadirə olunmasını qərara almışlar.

Cəlilin yuxarıda qeyd edilən əks-inqilabi hərəkətlərində onun ən yaxın köməkçisi oğlu Cahangir olmuşdur.







Cəlilin və oğlu Cahangirin apardıqları əks-inqilabi hərəkətlərindən aşkar olunur ki, onlar cürbə-cür vasitələrlə Şura hökumətini iqtisadi, təsərrüfat və maliyyə cəhətcə zəifləşdirməyə çalışmışlar. Bu məqsəd üçün ən ümdə kəndçilərin arasında daim mövhumati təbliğatlar aparmışlar.

Hərçənd məhkəmə istintaqında bir neçə şahidlər müqəssirləri müdafiə etdilər. Lakin onların müqəssirlər ilə qohumluq əlaqələri vardır. Məhkəmə onların ifadələrinə inanmamaqla, əhəmiyyətsiz hesab edir.

Yuxarıda deyilənləri nəzərə alaraq, c. m. k. m 316, 317, 323-cü maddələrinə əsaslanaraq, məhkəmə qərarlayır:

1. **Cəlil Cahangir oğlu** *51 yaş, Qubadlı Şıxlı kənd sakini, bisavad, bitərəf, evli, kulak, hüquqdan məhrum, qabaqda bir neçə dəfə məhkum olmuş;*

2. **Cahangir Cəlil oğlu** *24 yaş, Qubadlı Şıxlı kənd sakini, bitərəf, savadlı, kulak, hüquqdan məhrum, evli, məhkum edilməmiş;*

Müqəssir hesab edilsinlər. Ondan ötəri ki, 1920-ci ildən başlayaraq 1930-cu ilə kimi Qubadlı Şıxlı kəndinin zəhmətkeş kəndliləri arasında əks-inqilabi təbliğat apararaq və dini-mövhumati təbliğatlarla Şura hökumətinin kənddə apardığı iqtisadi və siyasi işlərinə böyük zərbələr vurmaqla, torpaq quruluşuna, kənd təsərrüfatını mədəni üsula keçirməyə və kollektivləşdirməyə, maliyyə işlərinə artıq maneçilik törətməklə, hökumətin bu sahədə zəiflədilməsinə və devrilməsinə fəal şəkildə çalışmışlar. Yəni, c. m. 72-ci m. II b bəndi üzrə.





Ona görə Cəlil Cahangir oğlunun uzun müddət aktiv surətdə Şura hökumətinin zəifləməsinə və devrilməsinə çalışdığını, Çar zamanından kulak və istismarçı olub da, proletar sinfinin fəal düşməni olmaqla, əvvəllər mühakimə olunmasını, sosializm quruluşuna yaramadığını nəzərə alaraq, c. m. 6, 10, 50, 52 m.m. əsaslanaraq, digər tərəfdən Cahangir Cəlil oğlunun yuxarıdakı cinayətlərdə iştirakı atası Cəlilə nisbətən az olmasını, birinci dəfə mühakimə olunmasını, gələcəkdə onun islah edilə biləcəyini nəzərə alaraq və c.m. 57-ci maddəsinə əsaslanaraq, məhkəmə qət edir:

1.Cahangir Cəlil oğlu c. m. 72-ci maddəsinin II b bəndi üzrə 6 (altı) ilin müddətinə şədid təcridli azadlıqdan məhrum edilsin. Əmvalının hamısı müsadirə edilsin hökumət nəfinə. Cəzasını bitirdikdən sonra Şirvan mahalından Azərbaycanın başqa bir mahalına 3 (üç) ilin müddətinə sürgün edilsin.

C. M. 32-ci m-nə əsasən həbsdə olduğu müddət cəzasından çıxılsın. Yəni, cəzası 1930 sənə 22 yanvardan etibarən hesab edilsin.

2.Cəlil Cahangir oğlu C.M. 72-ci maddəsinin II bəndi üzrə fokuldayə cəzaya məhkum edilsin, yəni, güllələnsin və əmvalının hamısı müsadirə edilsin hökumət nəfinə.

Həmin hökm qətidir, narazı tərəf 72 saat müddətinə şikayət edə bilər.

Sədr: Ə. Mamedov

Üzvlər: 1) Y. İsayev;

2) S. Hacıyev.

*Fond 917, siyahı 3, saxlanma vahidi 193. .*


Zirvan mahalından Azərbajcanın
başqa bir mahalına üç (3) il
müddətinə sürgün edilsin cəzasını
qurtardıqdan sonra.
C. m. 32 m. əsasilə, həbsdə olduğu
müddət cəzasından çıxılsın, yəni
cəzası 1930 s. 22 janvardan etibarən
hesab edilsin.
2. Cəlil Cahangir oğlu C. m. 72 m. II b.
üzrə güllələnmə cəzası müəyyən
edilsin, yəni güllələnsin və əmla-
kının hamısı müsadirə edilsin [illegible]
Həmin hökm qəti'dir, narazı
tərəf 72 saat müddətinə şikayət
edə bilər. —
Sədr [illegible]
Üzvlər 1. [illegible]
2. [illegible]

**Fond 917, siyahı 3, saxlanma vahidi 193, vərəq 80 .**






Bu çobanın zəhmət haqqı: [illegible]
[illegible]
Qoşqar [illegible] gənd [illegible]
Komitəsi sədri [illegible]
Katib [illegible]


[illegible]
Həmin [illegible] Zirvan mahal
məhkəməsinin [illegible]
[illegible]
[illegible]
[illegible] C. m. m. 243 m.
[illegible]
1930 s. imza edirəm

**Fond 917, siyahı 3, saxlanma vahidi 193.**









**Fond 917, siyahı 3, saxlanma vahidi 193.**

## KASSASİYA ŞİKAYƏTİ

Arxiv sənədlərindən görünür ki, müdafiə tərəfi verilən ağır cəza ilə razılaşmamış və yuxarı instansiya olan Ali Məhkəməyə kassasiya şikayəti vermişdir. Ali Məhkəmə də görünür repressiya illəri olduğundan, dövrün siyasi tələblərini nəzərə alaraq, risqə getməmiş və Göyçay məhkəməsinin çıxardığı qərarı qüvvədə saxlamışdır. Bunu Ali Məhkəmənin aşağıdakı qərarından görmək olur:

## QƏRAR

Azərbaycan İctimai Şura Cümhuriyyəti namı.

Ali Məhkəmənin cinayət tənyiz heyəti içi:

-Murquzovun, Vahabovun, və Kərimovun; prokuror Surxanovun iştirakı ilə 1930 sənədə 1 mart tarixli açıq məhkəməsində

Cəlil Cahangir oğlunun və Cahangir Cəlil oğlunun tənyiz şikayətinə baxıb böylə tapdı:

-Şirvan mahalı mühüm işlər məhkəməsi 1930-ci sənə fevral ayının 19-21-ci günlərində öz açıq iclasında **Cəlil Cahangir oğlunu-***51 yaşında, bisavad, bitərəf, evli, kulak, səsdən məhrum-*

-Müqəssir bilmişdir ondan ötəri ki, 1920-ci ildən 1930-cu ilə kimi, Qubadlı Şıxlı kəndində cürbəcür əksinqilabi şayələr və dini-mövhumati təbliğatlarla Şura hökumətinin kənddə apardığı iqtisadi və siyasi işlərinə böyük zərbələr vurmuşdur. Ona görə də C.M.





72-ci maddəsinin II bəndi ilə Ali cəzaya – güllələnməyə məhkum olunmuşdur. Əmvalinin hamısı müsadirə olunmuşdur.

**Cahangir Cəlil oğlunu** - *24 yaş, Qubadlı Şıxlı kənd sakini, bitərəf, savadlı, kulak, hüquqdan məhrum, evli, məhkum edilməmiş* – C. M. 72-ci maddəsinin II bəndi üzrə 6 (altı) ilin müddətinə şədid təcridli azadlıqdan məhrum etmişdir. Əmvalı müsadirə edilmiş, cəzasını bitirdikdən sonra 3 (üç) ilin müddətinə sürgün olunması barədə qərar çıxarılmışdır. Tənyiz şikayəti verib, hökmün ləğv olunmasını xahiş edirlər. Həmin iş barəsində vəkilin izahatını və prokurorun hökmün öz qüvvəsində qalması barədə rəyini dinləyib, nəzərə alaraq ki, tənyizçilərin göstərdikləri məqbul hesab olunmaz, ondan ötəri ki, məhkəmə şahidlərin ifadələri ilə belə aşkar etmişdir ki, müqəssirlər kəndlilərin dini-mövhumatından istifadə edərək, kolxoza daxil olmaq əleyhinə, hökuməti zəiflətmək məqsədi ilə təbliğat aparmışlar... Ona görə də müqəssirlərin əməlinə 72-ci maddənin 2-ci bəndini düzgün tətbiq etmişdir.

O xüsusat ki, müqəssirlər göstərdi ki, şahidlər iclasa dəvət olunmamışlar, həmçinin, məqbul hesab olunmaz. Çünki, məhkəmə şahidlərin ifadələrini işdən ötəri əhəmiyyətli bilmədikdə, onları dəvət etməməyə haqlı idi. İşi nəzərdən keçirdikdə hökmün ləğv olunmasına əsas tapmayaraq və c. u. m. m. 401-406-cı maddəsini rəhbər tutub böylə qərara gəldi:

-Həmin işdə verilən tənyiz şikayəti biəncam buraxılsın.

Sədr:

Üzvlər:

*Fond 917, siyahı 3, saxlanma vahidi 193.*







## GÜLLƏLƏNMƏ HÖKMÜ 10 İLLƏ ƏVƏZLƏNİR

Arxiv sənədlərindən görünür ki, Cəlil Cahangir oğlunun güllələnməsinə hazırlıq getdiyi bir anda Azəraycan Mərkəzi İcraiyyə Komitəsindən Ali Məhkəməyə 3080 nömrəli təcili teleqramma daxil olur. Teleqramda göstərilir ki, Cəlil Cahangir oğlunun əfv üçün etdiyi müraciət qəbul olunub və güllələnmə hökmü ləğv edilərək, 10 il azadlıqdan məhrumetmə cəzası ilə əvəzlənib:

**Respublika prokurorluğundan**

Mühüm işlər üzrə xalq məhkəməsinə

Daxil olan 3080 saylı teleqrammaya əsasən Cəlil Cahangir oğluna bildirin ki, 317 saylı iş üzrə ölüm hökmü (güllələnmə cəzası) dəyişdirilərək, 10 il müddətinə azadlıqdan məhrumetmə cəzası ilə əvəz edilib.

Məhkəmə istintağına nəzarət şöbəsinin prokuroru: Ağayev.

Katib: Cəfərov.


A.S.Ş.C.

...ədliyyə komisarlıьь

— və —

...cümhuriyyət prokyrorlyьy

Baqь, Persidski q., № 12.

Народный Комиссариат Юстиции

— и —

Прокуратура Республики

г. Баку, Персидская ул. № 12.

№ 3080 26/III 1930 г.

г. Геокчай.

В. НАРСУД ПО ВАНДКЛАМ.-

В дополнение к нашей телеграмме за № 3080, при сем препровождается дело за № 317 по обвинению Джалиля Джангир оглы и сообщается, что он помилован АзЦИК'ом. Расстрел заменен ему десятью годами лишения свободы.

Прокурор Отд. Суд. Следнадзора (Агеев)

Секретарь (Джафарли)


Kəbzdir

Verirəm həmin kəbzi ... Cahangir Cəlil oğ. ondan ötrü ki ... təslim aldım.

15/III 30. İmza ...

**Fond 917, siyahı 3, saxlanma vahidi 193, vərəq 74-57.**





## QƏBZ

Verirəm həmin qəbzi mən Cəlil Cahangir oğlu Şirvan mahal məhkəməsinə ondan ötəri ki, Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin 3080 nömrəli teleqrammasının məzmunu mənə məlum edildi.

Ona görə imza edirəm.

26 mart 1930. Saat 11:30

*Fond 917, siyahı 3, saxlanma vahidi 193, vərəq 90 .*


Şirvan Mahalь Agsy Rajon Ycralja Komitəsinin Sədri

Председатель Ахсуинского Райисполкома Ширванского Округа.

№ ... 193 г.

Kəbz

Verirəm həmin kəbzi mən Cəlil Cahangir oğlı Şirvan Mahal Məhkəməsinə ondan ötəri ki A.M. icraiyyə komitəsinin 3080 N li teleqramması məzmunu mənə məlum edildi. Ona görə imza edirəm.

26/III 30-s. saat 11½ da

İstintaq matreriallarının arasında bəzi qeyri-rəsmi qeydlər də diqqətimizi çəkir. Onlardan ikisini nəzərinizə çatdırıram:

*“Cəlil Cahangir oğlunun, oğlu Cahangirin işini təklif edirəm ki, dərhal ittihama göndər”.*

Buradan görünür ki, Göyçay Ərazi üzrə məhkəməsinə göstəriş verilib. İmza yoxdur. Bu, görünür, cinayət işinin üstündə qeyri-qanuni göstəriş olub. (*Fond 917, siyahı 3, saxlanma vahidi 193, vərəq 88*)



***Fond 917, siyahı 3, saxlanma vahidi 193, vərəq 88.***





*“Cəlil Cahangir oğlunun ölüm hökmü dəyişdiri-lərək, 10 illik həbclə əvəz edilib. Bu qeyddə göstərilir ki, Cəlilə məlum etməyin”. (Fond 917, siyahı 3, saxlanma vahidi 193, vərəq 89)*



***Fond 917, siyahı 3, saxlanma vahidi 193, vərəq 89.***

## QƏRAR

13 fevral 1930-cu il. Göyçay rayonu.

Mən Baş əməliyyatçı 132 saylı işin yazışmalarını araşdıraraq müəyyən etdim:

- 21 yanvarda prokurorluqdan ərizə daxil olmuşdur ki, Qaraməryəm rayonunun Qubadlı kənd sakini Cəlil Cahangir oğlu aktiv şəkildə çıxış edərək, kolxoz yaradılmasının əleyhinə olduğunu bildirib. Buna görə də həbs edilib. Həmin ərizədə göstrilir:

-Qaraməryəm rayonunun Qubadlı kənd sakini Cəlil Cahangir oğlunun kənddə çoxlu varidatı olmuşdur. O cümlədən evi, torpağı, at ilxısı (sürüsü) və s. çoxsaylı əmlak sahibi olmuşdur. Çox varlı olan bu şəxs buna görə də eksterimist hərəkətlərilə kasıb camaatı təsiri altında saxlamaq istəyir. Onun şəxsi işçiləri İbad Camal oğlu, Əli Naftəli oğlu və başqaları göstərirlər ki, bu (kulak) bəy həmişə öz işçıləri ilə kobud davranmış, onların şəxsiyyətini alçaltmış və iştədiyi kimi xalqın malını talamışdır. Bu barədə köhnə rejimə şikayətlər etmişlər. Onun bu əməllərinə göz yumulmuşdur. Sovetləşmədən sonra da Cəlil Cahangir oğlu bu əməllərindən əl çəkməmişdir. O, kənddə yoxdur. Bu əməllərə son qoyulub. 21 yanvarda şikayət daxil olub ona görə ki, Cəlil Cahangir oğlunun bütün varidatı kolxoza verilməsi təmin edilsin. Hal hazırda bu kulakın oğlu Cahangir Cəlil oğlu da atası kimi davranır. O da kulak olmaq arzusundadır. 24





yaşı var, ailəlidir. Kənddə hakimiyyəti əlində saxlamaq istəyir. Sovet hakimiyyətini tanımaq istəmir.

Qərara alıram ki, bu işə məhkəmədə baxılmalıdır.

*Fond 917, siyahı 3, saxlanma vahidi 193, vərəq 27-28* .

Bu qərar Cəlil Cahangir oğlunun işi ilə birləşdirilir və hər ikisi bir yerdə məhkəməyə göndərilir. Hər ikisinə yuxarıda göstərildiyi kimi eyni məhkəmədə hökm oxunur.



## Hökmün dəyişdirilməsində Niftalı bəyin köməyi

Cəlil bəyin güllələnmə hökmünün 10 il işlə əvəzlənməsi barədə araşdırmalarımız göstərir ki, həmin vaxt Bakı şəhər komendantı işləyən ***Niftalı bəy*** (Göyçayın Şəkili kəndindən olan ***Mirzalı bəyin**** oğlu) eşidir ki, atasının yaxın dostu Cəlil bəy haqda məhkəmə güllələnmə hökmü çıxarıb. Onu xilas etməyi özünə vəfa borcu sayan Niftalı bəy kömək üçün həmin vaxt Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin sədri vəzifəsində işləyən yaxın dostu ***Sultanməcid Əfəndiyevə*** (1887 - 1938) müraciət edir. S. Əfəndiyev Niftalı bəyin xahişini nəzərə alıb, o dövr üçün böyük risk sayılan bir addım ataraq, Cəlil Cahangir oğlunun ölüm hökmünü 10 il işlə əvəzləyir (təəssüf ki, sonralar Sultanməcid Əfəndiyev özü də bu repressiya maşınının ağzından canını qurtara bilmir və 1938-də güllələnir).

Bütün bu yüksək səviyyəli çalışmalara, köməklərə baxmayaraq, Cəlil Cahangir oğlunun həyatını xilas etmək mümkün olmur. Belə ki, həbsxanada olarkən oğlu Cahangirin ölüm xəbərini alan (bu xəbərin nə dərəcədə doğru olub-olmadığını dəqiqləşdirmək

* Mirzalı bəy Musa bəy oğlu 1850-ci il doğumlu olmaqla, Çar Rusiyası zamanında Şəkili, Bərgüşad, Hacalıkənd, Yalman və Şıxəmir kəndlərinin bəyi olmuşdur. 1888-ci ilin siyahıya alınmasına görə Mirzalı bəyin Qinyaz(8 yaş), İsa(6 yaş), Rəsul(1 yaş) adlı oğlanları olduğu göstərilib.Sonrakı nigahdan isə, Niftalı, Bağır və Eldar adlı oğlanları olmuşdur.





mümkün olmadı – *müəllif)* Cəlil bəy bu dərdə dözməyərək 1930-cu ildə ürək xəstəliyindən həbsxanadaca vəfat edir.

Onun ölüm xəbəri kəndə çatanda qardaşı Səməd cənazəni gətirmək üçün oğlu Nəsrullahı Bakıya göndərir. 1930-cu ildə nəqliyyat olmadığından gənc Nəsrullah təkbaşına belə ağır işin öhdəsindən gələ bilmir və Cəlil bəyin cənazəsini Bakıda dəfn edərək, kəndə qayıdır. Qubadlı Şıxlıya gələndə atası Səməd bu vəziyyətdən çox hirslənir və oğlunu təkrar şəhərə qaytarır ki, get necə varsa qardaşımın cənazəsini kəndə gətir. Həm də tapşırır ki, Niftalı bəyin yanına get, bu işdə ondan yardım etməsini istə. Nəsrullah ikinci gedişində Niftalı bəyin köməkliyi ilə cənazəni çıxararaq qatarla kəndə gətirib. Beləcə Cəlil bəy Qubadlı Şıxlı qəbiristanlığında dəfn edilib.











Дело №

ОПРЕДЕЛЕНИЕ

Народный Окружной Суд в составе:

Председателя

Членов Суда

Пом. Прокурора

УПК, ОПРЕДЕЛЯЕТ

**_Fond 917, siyahı 3, saxlanma vahidi 193_**





## CƏLİL BƏYİN XANİMANINI BOLŞEVİKLƏR NECƏ YAĞMALADILAR

Cəlil Cahangir oğlunun həbsindən sonra onun yerdə qalan nəslinin, qohum əqrabalarının da qara günləri başlayır. Belə ki, Cəlil bəyə məxsus bütün əmlak, var-dövlət, torpaqlar, hətta 11 baş ailəsinin, uşaqlarının yaşadığı mülk belə zorla əllərindən alınır. Oğlu Zeynalabdul sağlığında uşaqlarına bu barədə danışarmış ki, atam (Cəlil bəy) həbs olunandan sonra, yerli bolşeviklər evimizə basqın etdilər, bütün var-dövlətimizi yağmalayıb apardılar. Anamın, mənim və qardaşlarımın qollarımızdan yapışaraq, bizi zorla iki mərtəbəli mülkümüzdən çıxardılar. Hətta, bizi ikinci mərtəbənin eyvanından elə itələdilər ki, pilləkənlə yumalanaraq, ağlaya-ağlaya həyətə düşdük. Bizi kənddən sürgün etdilər. Bir çox qohumlarımızla (Məhəmməd, onun arvadı Səkinəxanım, övladları Lətif, İsmixan, Kimya və s.) birlikdə bir neçə il İsmayıllının Qubaxəlilli kəndində yaşayandan sonra, doğma kəndimizə qayıda bildik.

Cəlil bəyin nəvəsi Hafisə xanım söhbət edir ki, mən uşaq olanda həmişə Zərəndam *(Cəlil bəyin ikinci arvadı; 1967-ci ildə dünyasını dəyişib – müəllif)* nənəmlə kəndimizdəki məktəbin həyətinə cincilim, əməköməci yığmağa gedərdik. Ora çatanda Zərəndam nənəm həmişə dil deyib ağlayardı. Mən bunun səbəbini soruşanda heç bir şey deməzdi. Böyüdükcə öyrəndim ki, kəndimizin məktəbi babam Cəlil bəyin

mülkü olub, Zərəndam nənəm də həmin evin xanımı olub. Məktəbin həyətinə gedəndə nənəm həmin günləri xatırlayaraq ağlayırmış. Yadımdadır ki, kənd camaatı Zərəndam nənəmi çox sevərdilər, hamı onun hörmətini saxlayardı. Çünki, deyilənə görə, imkanlı vaxtlarında kasıb-kusuba çox əl tutarmış, çox acların qarnını doyurarmış. Ona görə ölən gününə qədər camaat ona "Ağam" deyə müraciət edərlərmiş. Bu, həm də Cəlil babamın camaat arasında qazandığı hörmətə görə idi.

Qeyd edim ki, Cəlil Cahangir oğlu ilk dəfə Səadət adlı qızla evlənib. Ondan Cahangir, Xudu, Ağaverdi, Zeynalabdul və Zeynəb adlı övladları olduqdan sonra, Səadət xanım rəhmətə gedir. Bir müddətdən sonra Cəlil bəy Zərəndam xanımla ailə qurur. Bu nikahdan isə, 1930-cu ilə qədər Nadir, Qinyaz və Ümmühanı adlı övladları olur. Zərəndam xanım 1967-ci ildə dünyasını dəyişir.

Araşdırmalarımız göstərir ki, son dərəcə vətənpərvər və millətpərəst olan Cəlil bəyin övladları da atalarına bənzəmişlər. Onun övladlarının həyatını öyrəndikdə bunu aydın görmək olur. Belə ki, Cəlil bəyin üç oğlu – Xudu, Ağaverdi və Qniyaz Böyük Vətən Müharibəsində fədakarlıqla döyüşmüş və bu müharibədə itkin düşmüşlər *(bax: Azərbaycan Respublikasının Xatirə kitabı, II hissə)*





## *Övladları*

**Cahangirov Cahangir Cəlil oğlu -** 1906-cı ildə Qubadlı Şıxlıda doğulub. 1930-cu ildə atası ilə birlikdə repressiyaya məruz qalıb. Altı il iş alaraq, deyilənə görə Tiflis türməsinə göndərilib. Ondan sonra haqqında heç bir məlumat yoxdur. Tutularkən evli olub. Yurdunda İdris və Rəsul adlı iki oğlu qalıb.

**Cahangirov Xudu Cəlil oğlu -** 1910-cu ildə Qubadlı Şıxlıda doğulub. 1942-ci ildə Göyçay Rayon Hərbi Komissarlığından (RHK) orduya çağırılaraq, Böyük Vətən Müharibəsinə göndərilib. Sıravi əsgər olub və 1943-cü ildə itkin düşüb *(Azərbaycan Respublikasının Xatirə kitabı, II hissə).*

**Cahangirov Ağaverdi Cəlil oğlu -** 1914-cü ildə Qubadlı Şıxlıda doğulub. 1942-ci ildə Göyçay Rayon Hərbi Komissarlığından orduya çağırılaraq, Böyük Vətən Müharibəsinə göndərilib. Sıravi əsgər olub və 1943-cü ildə itkin düşüb. Əsgərliyə gedərkən subay olub *(Azərbaycan Respublikasının Xatirə kitabı, II hissə).*

**Cahangirov Qniyaz Cəlil oğlu -** 1923-cü ildə Qubadlı Şıxlıda doğulub. 1941-ci ildə Göyçay Rayon Hərbi Komissarlığından orduya çağırılaraq, Böyük Vətən Müharibəsinə göndərilib. Sıravi əsgər olub və 1944-cü ildə itkin düşüb. Əsgərliyə gedərkən subay

olub *(Azərbaycan Respublikasının Xatirə kitabı, II hissə).*

**Cahangirov Zeynalabdul Cəlil oğlu -** 1919-cu ildə Qubadlı Şıxlıda doğulub. Atası ona yaxın dostu, Bakı milyonçusu və xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin adını verib. Uşağın kirvəsi də Tağıyev olmuşdur. Zeynalabdul Pedaqoji texnikumu bitirib. Uzun illər kolxozda müxtəlif vəzifələrdə çalışıb. Aşafatma Həsən qızı ilə ailə qurub və bu nikahdan Cəlil, Vaqif, Vahid adlı üç oğlu, Məğrubə, Asifə və Rəqibə adlı üç qızı olub. Dövrünün sayılıb-seçilən ağsaqqallarından olan Zeynalabdul kişi 1997-ci ildə vəfat etmişdir.



Onun oğlu **Vaqif** müəllim (1949-cu il doğumludur) Azərbaycan Politexnik İnstitutunu bitirərək, uzun illər Kənd Təsərrüfatı Nazirliyi sistemində məsul vəzifələrdə çalışıb. Yuxarıda adını çəkdiyim Mirzalı bəyin nəticəsi **Pərinaz** xanımla ailə quran Vaqif müəllimin **Azad** və **Səadət** adlı iki övladı var. Azad stomatoloq, Səadət isə, filologiya üzrə fəlsəfə doktorudur.





Zeynalabdulun digər oğlu **Vahid** müəllim (1957-ci il doğumludur) isə, polis mayorudur. Onun Zeynalabdul, Cahangir və Cəmil adlı oğlanları orta məktəb şagirdləridir.

**Cahangirova Məğrubə Zeynalabdul qızı -** 1955-ci ildə Qubadlı Şıxlıda doğulub. Ailəlidir, Əziz adlı bir oğlu var.

**Cahangirova Asifə Zeynalabdul qızı -** 1959-cu ildə Qubadlı Şıxlıda doğulub. Ailəlidir, Kübra və Süleyman adlı iki övladı var.

**Cahangirova Rəqibə Zeynalabdul qızı -** 1961-ci ildə Qubadlı Şıxlıda doğulub. Ailəlidir, Gülnar, Nigar, Məhəmməd adlı üç övladı var.

**Cahangirova Ümmühanı Cəlil qızı -** (1920-2002) Qubadlı Şıxlıda doğulub. Özü evdar qadın olsa da, həyat yoldaşı **Sədrəddin** müəllim (1905-1961) dövrünün nüfuzlu ziyalılarından olub. Belə ki, 30-cu illərdən pedaqoji fəaliyyətə başlayan Sədrəddin müəllim 1941-ci ildə Böyük Vətən Müharibəsinə yollanıb. Qafqazdan Belorusiyaya qədər bir çox cəbhələrdə şanlı döyüş yolu keçərək, geriyə orden və medallarla dönüb. Müharibədən sonra əllinci illərə qədər Göyçay rayon maarif şöbəsinin müdiri vəzifəsində çalışan Sədrəddin müəllim sonralar (ömrünün sonuna qədər) Qubadlı Şıxlı kənd orta məktəbinin direktoru olub. Gənc nəslin maariflənməsində və təlim-tərbiyəsində böyük rolu olub. Onun Eyvaz, Hafisə, Fəzilə və Qorx-

maz adında övladları olmuşdur. Oğlu **Qorxmaz** müəllim (1959-cu il doğumlu) Azərbaycan İnşaat Mühəndislər İnstitutunu bitirməklə, uzun illər rəhbər vəzifələrdə çalışıb. Hazırda Fövqəladə Hallar Nazirliyində məsul vəzifədə işləyir. Qorxmaz müəllimin **Zərifə** xanımla nikahından **Tural** və **Aygün** adlı ali təhsilli iki övladı var.

**Cahangirov Nadir Cəlil oğlu** – 1928-ci ildə doğuub. Kolxozda sıravi işçi kimi çalışıb. Şərqiyə adlı qızla nikahından Qadir, Qnyaz, Seyran və İlyas adlı oğlanları, Fəridə və Naibə adlı qızları dünyaya gəlişlər. Nadir 2003-cü ildə dünyasını dəyişib, qəbri Qubadlı Şıxlı qəbiristanlığındadır.

**Cahangirova Zeynəb Cəlil qızı -** Qubadlı Şıxlıda doğulub. Qubad, Güllü, Nailə adlı üç övladı olub.

**Cahangirova Məğrubə Zeynalabdul qızı -** 1955-ci ildə Qubadlı Şıxlıda doğulub. Ailəlidir, Əziz adlı bir oğlu var.

**Cahangirova Asifə Zeynalabdul qızı -** 1959-cu ildə Qubadlı Şıxlıda doğulub. Ailəlidir, Kübra və Süleyman adlı iki övladı var.

**Cahangirova Rəqibə Zeynalabdul qızı -** 1961-ci ildə Qubadlı Şıxlıda doğulub. Ailəlidir, Gülnar, Nigar, Məhəmməd adlı üç övladı var.





## CƏYİRLİ VƏ QUBADLI ŞIXLI KƏNDLƏR BİRLİYİNİN 1904-CÜ İLƏ OLAN STATİSTİK TƏSVİRİ

Təsərrüfatların sayı........202
Əhalinin sayı...................751
Kişilərin sayı...................411
Qadınların sayı................340
Dəmyə sahə......................622 desyatin
Su tutan sahə.....................680 desyatin
Kanal.................................1
At ......................................20
Camış.................................100
İnək.....................................60
Kəl .....................................105
Buzov .................................45
Qoyun ................................150
Quzu...................................150
Keçi ...................................100
Törədici at..........................5
Heyvanların hamısı yerli cins olub.

*Dövlətə vergi şəklində ödənmiş məhsullar:*
Yun .....................................8 pud (1 pud – 16,4 kq və yaxud 2 batman, 40 girvənkə)
Yağ ......................................2 pud
Pendir...................................3 pud

Sahəyə 1.600 pud taxıl əkilmiş, 8.400 pud məhsul götürülmüşdür.

80 pud çəltik əkilmiş, 450 pud məhsul əldə edilmişdir.

150 pud barama istehsal olunmuşdur.

Kənddə 2 mağaza, 2 dəyirman vardır.

*Qaynaq: Yelizavetpol quberniyasının məlumat kitabı, 1904.*









**Fond 917, siyahı 3, saxlanma vahidi 193**

## GÖYÇAY RAYONUNDA 1922-ci İLDƏ MÜSADİRƏ OLUNMUŞ MÜLKLƏRİN SİYAHISI

**Yaşayış evləri:**

1. Həmid və Hacı İslam Hacı Məmməd oğulları (xəstəxanaya verilib).
2. Naslednikov Mustafa bəy (Rüstəmbəyov).
3. Hacı Mir Tacəddin Mir Həşimov (hərbi komissarlıq və fəhlə ittifaqına verilib).
4. Məmməd-İsmayıl bəy Səlimbəyov.
5. Hacı Mir Zeynal Məstanzadə.
6. Məmməd bəy və Rəhim bəy Ağabəyovlar (komxoza verilib).
7. Hacı Məmməd Həsənov və Mirzə Məmmədov (poçta verilib).
8. Ağəli, Əbülfəz və Əbülqasım Əsgərovlar.
9. Hacı Əliqulu Zeynalov (milis idarəsinə verilib).
10. Abdul-Əhəd Musayev (türməyə verilib).
11. Səlim Hacı Cəfər oğlu Kərimov.
12. Xəlil Xəlilov (inispektor dəftərxanası).
13. Zari xanım Qocayev (fəhlə klubu).
14. Umud bəy Dəmir bəy oğlu Mirabov (yataqxana).
15. Aleksandr Kuzmiç Uedinov (aqrar məntəqənin bağı).
16. Naslednikov Arşaka Minaeviça Belubekova (Qrenajnaya stansiya).





17. Tofiq Hacı Hüseyn oğlu Əfəndiyev.
18. Hacı Mirtağı Mirhəşimov (elektrik stansiyası).
19. Əliməmməd Əliyev.
20. Həzrət bəy və Rəhim bəy Ağabəyovlar (uşaq evinə verilib).

Karvansaralar:

1. Heydər Kərimov.
2. Kərbəlayi Səftər Hacı Hüseyn oğlu.
3. Hacı Zeynal və Hacı Məcid İsmayılovlar.
4. Ağaisa, Firudin və Ağamusa Ağayevlər.
5. Həzrət bəy və Rəhim bəy Ağabəyovlar.
6. Eynulla və Məcid Əliyevlər.
7. Məşədi Məmmədağa Zeynalov.
8. Ağakərim Kərimov və və Əbülfəz Əsgərov.
9. Seyid Hüseynov və Mir Səmədov.
10. Əlisgəndər Sultanov.

Hamam: Ağabəyovlar.

Şərikli mülklər:

1.Mir Hüseyn Mir Səmədov.
2. Məşədi Əbülfəz Əsgərov.
3. Ağakərim Kərimov.
4. Məşədi Məmmədağa Zeynalov.
5. Məşədi Yusif Kərimov.
6. Mixail Baqdanoviç Nazarov
7. Əliheydər Musayev.
8. Məşədi Əli və Həsən Həsən oğlu.

9. Heydər Kərimov.
10. Hacı Əsəd Hacı Kərim oğlu.
11. Məşədi Mehti İsmailov.
12. Ağabəyovlar.
13. Əlibaba Sədi oğlu.
14. Rəsul bəy Sultanov.
15. Tofiq Hacı Hüseyn oğlu Əfəndiyev.
16. Hacı Mahmud Əfəndiyev.
17. Kərim Mikailzadə.
18. Məşədi Həşim Cəbrailov.
19. Rza bəy Mirabov və Cəfər bəy Cəbrailov.
20. Nəsrəddin Kərimov.
21. Sədrəddin Süleymanov.
22. Hacı Həmid Həmzə oğlu.
23. Seriy Terkasparov.
24. Kazandar Babalı oğlu.
25. **Cəlil Cahangir oğlu və Məmməd Hacı Qubad oğlu.... 17 ədəd.**
26. Hacı Ömər bəy İbrahimbəyov.
27. Cəfər bəy Cəfəralıbəyov.
28. Ağamusa Hacı Məmməd oğlu.
29. Hacı Zeynal İsmayılov.
30. İsmayıl Novruz oğlu.
31. Veysəl Hacı İslam oğlu və Həmid Həmid oğlu
32. Hacı Baba Abdullayev.
33. Qəzənfər Yusif Oğlu.
34. Cəfər bəy Cəfəralıbəyov və Rza bəy Mirabov.
35. Məmməd İsmail bəy Səlimbəyov.
36. Abdulləsəd Musayev.





37. Məmmədbağır Məmmədov.
38. Ağamirzə Məmmədov.
39. Əlihəsən Məmmədov.
40. Hacı Mir Hüseyn Hacı Mir Ələsgər oğlu.
41. Əlimövsüm Musayev.
42. Mir Mövsüm Mir Abutalıb oğlu.
43. Məşədi Əhəd Hacı Mustafa oğlu.
44. Məşədi Məmmədəli Musayev.
45. Məmmədmehti Hacı Məmmədalı oğlu.
46. Molla Abduləli Axdı Molla Mustafa oğlu.
47. Seyfəddin Xəlil oğlu.
48. Əhməd Hacı Nəbi oğlu.
49. Məşədi Ağabala Hacı Allahverdi oğlu.
50. Məmmədbağır Məmmədov.
51. Aleksandra Melik Alaxverdiyeva.
52. Ağəli Rsul Məmmədov.
53. Ağalar Məmmədov.
54. Hacı Məmmədhəsən Məmmədov.
55. Əlisgəndər Sultanov.
56. Hacı Daşdəmirov.
57. Məşədi Məmmədağa Zeynalov.
58. Məcid və Eynulla Əliyevlər.
59. Heydər Kərimov.
60. Kərbəlayi Səftər Hacı Hüseyn oğlu.
61. Məşədi Əliqulu Musayev.

və s.

Fond 244, siyahı 1, saxlanma vahidi 316, vərəq 51-52.

Azərbaycan Dövlət Arxivində apardığımız araşdırmalardan məlum olur ki, 1920-1938-ci illər ərzində Göyçay rayonu ərazisində minlərlə insanın mülkləri zorla əllərindən alınaraq, güllələnmiş, yaxud Sibirə sürgün olunmuşlar. Bunların hamısını bir kitaba sığışdırmaq mümkün deyildir. Əlavə məlumat almaq istəyənlər müəllifə müraciət edə bilərlər.







## ŞAMAXI QƏZASININ BƏRGÜŞAD MƏNTƏQƏSİNİN KÖÇƏRİ ŞIXLI (QUBADLI ŞIXLI) KƏNDİNDƏ 1849-CU İLDƏ YAŞAMIŞ ƏHALİSİNİN KAMERAL TƏSVİRİ HAQQINDA

**1.Mahmud Seyid oğlu -** 41 yaş;
*Oğlanları:* Məmməd - 20 yaş (ölüb);
Səlim – 15 yaş;
Məmmədin oğlu Məlik – 1 yaş.

**2.Məmməd Seyid oğlu** – 43 yaş;
*Oğlanları*: İsmail – 13 yaş;
Abdulla – 12 yaş;
Qərib – 11 yaş;

**3.Məhərrəm Seyid oğlu** – 30 yaş (ölüb);
*Oğlu*: Seyid – 1 yaş;

**4.Mustafa Seyid oğlu** – 25 yaş;

**5.İbrahim Məmməd oğlu** – 36 yaş;
*Oğlu:* Məmməd – 3 yaş;

**6.Alı (Əli) Qaçay oğlu** – 36 yaş;
*Oğlu:* Abdulla – 2 yaş;
Qardaşı: Mikail – 21 yaş;





**7.Məmmədəli Əhməd oğlu** – 30 yaş;
*Qardaşı:* Qurbanəli – 28 yaş;
*Onun oğlu:* Məmməd – 2 yaş (ölüb);

**8.Mustafa Mahmud oğlu** – 30 yaş;
*Oğlu:* Əliməmməd – 2 yaş;
*Qardaşları:* Həsən – 18 yaş;
Hüseyn – 15 yaş (ölüb);

**9.Daştı Məmmədalı oğlu** – 49 yaş (ölüb);
*Oğlanları:* İsmail – 15 yaş;
Cəbrail – 17 yaş;

**10.Eldar Hacı oğlu** – 30 yaş;
*Oğlanları:* Abduləziz – 6 yaş;
Sualtanmurad – 3 yaş (ölüb);
İsmail – 1 yaş (ölüb);

**11. Yusif Məmməd oğlu** – 32 yaş (ölüb);

**12. Qurban Məmməd oğlu** – 33 yaş (ölüb);
*Oğlu:* Dəmir – 9 yaş;

**13. Osman Məmməd oğlu** – 29 yaş (ölüb);
*Himayəsindəki qohumları:*
Məmməd Adıgözəl oğlu – 7 yaş;
*Onun qardaşı*: Nurməmməd – 3 yaş;

**14. Əliməmməd Cavad oğlu** – 40 yaş (ölüb);
*Oğlanları:* Hüseyn – 11 yaş,
Həsən – 5 yaş;
*Himayəsindəki qohumları:*
Rüstəm Alı (Əli) oğlu – 5 yaş (ölüb);

**15. Məhərrəm Qurban oğlu** – 21 yaş (ölüb);

**16. Ömər Rəhim oğlu** – 21 yaş (ölüb);

Fond 10, siyahı 1, saxlanma vahidi 17.

**Qeyd:** 1846-cı ildə Köçəri Şıxlı (indiki Qubadlı Şıxlı) kəndində 16 ailə, 42 nəfər kişi qeydə alınmışdır (həmin dövrdə qadınların adları siyahıya salınmırdı).

Qarşısında "ölüb" yazılan şəxslər siyahıya alınmadan bir neçə il sonra dünyasını dəyişmişlər.






Списокъ
Камеральнаго Описанія
[illegible]
1849 года


Жители этой [illegible]
[illegible]



**Fond 10, siyahı 1, saxlanma vahidi 17.**







**Fond 10, siyahı 1, saxlanma vahidi 17.**

## MÜƏLLİF HAQQINDA

***Paşa Yaqubun bu günədək çap olunmuş kitabları***

1. “Övliyalar vurğunu”, 1997.
2. “Allahın dostları”, 1998.
3. “Mürşidi-Kamil”, 1999.
4. “Şəhidlik zirvəsi”, 2000.
5. “Böhrandan çıxış yolları”, 2000.
6. “Kamilliyə doğru”, 2001.
7. “Kür damlaları”, 2001.
8. “Tanrı məhəbbəti”, 2007.
9. “Kəramət sahibi”, 2008.
10. “Mənəviyyat həkimləri”, 2007.
11. “Peyğəmbər nəvələri Azərbaycanda”, 2008
12. “İslamın mayakları”, 2008.
13. “Doğrulan ümidlər” I, II, III, IV *(fərqli nəşrlər),* 2009.
14. “Şıx Eyyub baba”, 2010.
15. “Nurlu simalar” I, II, III *(fərqli nəşrlər),* 2010
16. “Torpağı şərəfləndirənlər” I, II *(fərqli nəşrlər),* 2011.
17. “Ziyarət yollarında” I, II *(fərqli nəşrlər),* 2011.
18. “Padar kəndinin ensiklopediyası”, 2012.
19. “Baş Daşağıl ensiklopediyası”, 2012.
20. “Övliyalar məskəni Quba mahalı” I, II *(fərqli nəşrlər),* 2012.





21. “Kərimli ensiklopediyası”, 2013.
22. “Kəramətin sirləri”, 2014.
23. “Eminli ensiklopediyası”, 2015.
24. “Kişilik məktəbi”, 2015.
25. “Xanım övliyalar”, 2015.
26. “Cəlil bəy”, 2015.
27. “16 Məhəbbət ili”, 2015.
28. “Məhəmməd Davudi”, 2016.

***Qeyd:*** *bu kitablardan əldə etmək istəyənlər, yaxud, növbəti nəşrlər üçün arzu və təklifləri olanlar müəlliflə əlaqə saxlaya bilərlər.*

Əlaqə: tel.: 050 (70) 375 30 97
E-mail: yaqub1968@mail.ru

## Mündəricat

ÜRƏK AĞRISI İLƏ OXUDUĞUM KİTAB.................. 3
MÜƏLLİFDƏN GÖYÇAY TARİXİNƏ.......................... 8
QISA EKSKURS .............................................................. 8
CƏLİL BƏY.................................................................. 10
İSTİNTAQ PROTOKOLU ........................................... 22
İTTİHAM QƏRARI....................................................... 26
AKT................................................................................ 32
PROTOKOL.................................................................. 37
İş N 317 ........................................................................ 37
HÖKM........................................................................... 70
KASSASİYA ŞİKAYƏTİ.............................................. 78
QƏRAR......................................................................... 81
QƏBZ ........................................................................... 86
QƏRAR......................................................................... 89
Hökmün dəyişdirilməsində Niftalı bəyin köməyi .......... 91
CƏLİL BƏYİN XANİMANINI
BOLŞEVİKLƏR NECƏ YAĞMALADILAR................ 94
*Övladları* ........................................................................ 98
GÖYÇAY RAYONUNDA 1922-ci İLDƏ
MÜSADİRƏ OLUNMUŞ MÜLKLƏRİN
SİYAHISI..................................................................... 105
MÜƏLLİF HAQQINDA............................................... 116



**PAŞA YAQUB**

**CƏLİL BƏY**

**Mətbəənin direktoru:** ***Elman Qasımov***
**Dizayner:** ***Mətanət Əliqızı***

Çapa imzalanmışdır: 12.12.2015. Formatı 84x108 1/16.
Həcmi ç.v. Sifariş № 50. Tiraj 100

«Zərdabi LTD» MMC Nəşriyyat Poliqrafiya müəssisəsi
☎ iş (012) 514-73-73, mob. (050; 070) 344 76 01
e-poçtu: zerdabi_em@mail.ru